QARABAĞ AZƏRBAYCANDIR!

## 2022-ci il: BÖYÜK QAYIDIŞIN ilk karvanını yola saldıq



7



SƏS

№ 231 (6672) 16 dekabr 2022-ci il. Qiymәti 60 qәpik

# Türk birliyindən dünyaya mesaj!




**İlham Əliyev: "Azərbaycanın həm Türkiyə, həm Türkmənistanla siyasi əlaqələri yüksək səviyyədədir"**

3

# Müzəffər xalqın güvənc yeri:

# GÜCLÜ ORDU!



8

## "Azərbaycan tərəfi dialoqa hər zaman açıqdır"



4

## Ruben Vardanyanın HİYLƏGƏR İNİLTİLƏRİ



14

## Ailə quran cütlüklər arasında yaş fərqi neçə olmalıdır?



9

## Müəllim-şagird münasibətlərinin müasir forması hara aparır?



11

## Laçın-Şuşa-Xankəndi yolu: nə baş verir və daha nə baş verə bilər?



6

# “Türk Dövlətləri Təşkilatının beynəlxalq səviyyədə önəmi artır”

## Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Baş katibini qəbul edib

**Prezident İlham Əliyev dekabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib. Prezident İlham Əliyev Kubanıçbek Ömüralıyevi Türk Dövlətləri Təşkilatının Baş katibi seçilməsi münasibətilə təbrik etdi, ona təşkilatın üzv dövlətləri arasında qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsi istiqamətindəki işində uğurlar arzuladı və əminliyini bildirdi ki, o, Təşkilat çərçivəsində sıx əməkdaşlığın həyata keçirilməsində səylərini əsirgəməyəcək.**

Türk Dövlətləri Təşkilatının fəaliyyətinə toxunan Prezident İlham Əliyev Təşkilatın beynəlxalq səviyyədə önəminin artdığını məmnunluqla qeyd etdi, bunun üzv və müşahidəçi dövlətlərin beynəlxalq nüfuzunun və iqtisadi potensialının artmasına xidmət etdiyini bildirdi, bu baxımdan ötən ay Təşkilatın Səmərqənddə keçirilən IX Zirvə Görüşünün əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Kubanıçbek Ömüralıyevin Türk Dövlətləri Təşkilatının Baş katibi kimi azərbaycanlı həmkarları ilə sıx təmasda olacağına əminliyini bildirdi.



Xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən qonaq TDT-ni yaradan dövlətlər sırasında ilk ölkə olaraq Azərbaycana səfər etməsindən məmnunluğunu bildirdi və Təşkilatın fəaliyyətinin güclənməsində ölkəmizin fəal rolunu xüsusi vurğuladı.

Türk Dövlətləri Təşkilatının Baş katibi vurğuladı ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın Qələbəsi və ərazilərimizin işğaldan azad edilməsi təkcə ölkəmiz üçün deyil, bütün türk dünyası üçün böyük önəm daşıyır. Kubanıçbek Ömüralıyev üzv dövlətlərin dil və mədəniyyət baxımından ümumi köklərə malik olduğunu qeyd edərək əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi. Söhbət zamanı əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

---

Təhlil

# İLHAM ƏLİYEV:

## ”Heç kim bizi dayandıra bilməz”



Bu gün sözü imzası qədər dəyərli olan Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının son 19 illik prezidentlik dövründə çoxəsrlik Azərbaycan tarixində xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən xalqın Prezidentin dediyi kimi: ”Heç kim bizi dayandıra bilməz. Yüz minlik ordunu kim dayandıra bilər”. Və bu qələbə, uğurlu nəticələr məhz Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ”Güclü ordu - güclü dövlət” strategiyasının konsepsiyanın nəticəsidir və bu üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Bir sözlə, ötən illər həm də onu göstərdi ki, Prezident İlham Əliyev sözü imzası qədər dəyərli olan qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin, xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir.

### QƏTİYYƏTLİ LİDER, MÜZƏFFƏR ORDU, YENİLMƏZ XALQ BİRLİYİ

Artıq qələbəmizin ikinci ilini də böyük uğurla başa vururuq. Böyük qürur hissi keçiririk ki, bu qələbə və uğurlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən son 19 il ərzində həyata keçirilən ”Güclü ordu - güclü dövlət” strategiyasının və ”Dəmir yumruq” əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığının bütün dünyaya nümayişi idi. Bu, həm də bir daha nümayiş etdirdi ki, güclü, qüdrətli, yüz minlik ordunu heç kim dayandıra bilməz!

Prezident, Ali Baş Komandan İlham Əliyev çıxışlarında da dəfələrlə bildirmişdir ki, bu qələbə zamanında ordu sahəsində görülən işlərin nəticəsidir: ”Ona görə biz güclü dövlət yaratmışıq, mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır. Bizim hazırlıq işlərinin aparılmasında əsas amil xalq-iqtidar birliyi olmuşdur. Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, bizim siyasətimizə böyük inam var. Müharibə və onun nəticələri bir daha Azərbaycan xalqını əmin etdi ki, bu inamı bizə Azərbaycan xalqı bəxş etmişdir. Çünki nəyi demişiksə, onu da etmişik”. Dövlət başçısı çıxışı zamanı onu da bildirdi ki, biz cəsarət göstərdik, milli ruh nümayiş etdirdik və istədiyimizə nail olduq: ”Bir daha demək istəyirəm ki, İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq”.Bəli, sözü imzası qədər güclü olan lider, Ali Baş Komandan 44 gün davam edən İkinci Vətən müharibəsində nəyi, nə vaxt edəcəyini bildiyi üçün bu Qələbə qazanıldı.

### ALİ BAŞ KOMANDAN 44 GÜN DAVAM EDƏN İKİNCİ VƏTƏN MÜHARİBƏSİNDƏ NƏYİ, NƏ VAXT EDƏCƏYİNİ BİLDİYİ ÜÇÜN BU QƏLƏBƏ QAZANILDI

Göründüyü kimi, bu qələbə Prezident İlham Əliyevin ”nəyi nə vaxt, necə etmək lazım olduğunu bilərək, ”Güclü ordu - güclü dövlət” strategiyasının və ”dəmir yumruq” siyasətinin nəticəsidir. Çünki dövlət başçımız iqtisadi sahədə əldə etdiyimiz gücü Ordumuzun müasir texnologiyalarla təchiz edilməsinə və peşəkarlığının artırılmasına yönəltdi. Hərbçilərin mənzil-məişət şəraiti yaxşılaşdırıldı, hərbçilərimiz beynəlxalq təlimlərə qatıldılar. Son 19 il ərzində Prezident İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə bəyan edirdi ki, Ermənistan Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli prosesinə ciddi səy göstərməsə, Azərbaycan torpaqlarını müharibə yolu ilə geri qaytaracaq. Və bunu da etdi. 2020-ci il sentyabrın 27-də başladığımız 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev cənablarının ”dəmir yumruğu” düşmənlərimizi acı və tarixi məğlubiyyətə düçar etdi. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Ermənistanın məğlubiyyəti haqqında kapitulyasiya aktıdır. Bu Bəyanatı imzalamaqla Dağlıq Qarabağ ifadəsi gündəmdən çıxdı və Azərbaycanda belə bir ərazi vahidi artıq mövcud deyil. Bəli, Prezident İlham Əliyevin nəyi necə və vaxt etmək lazım olduğunu çox yaxşı bildiyi siyasətin nəticəsi budur. Azərbaycan Prezidenti İlham Əliyev xalqa dəfələrlə etdiyi müraciətlərində bildirib ki, biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq: ”Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir”.

Göründüyü kimi, bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Bir sözlə, Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olunmaq üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və güclü dövlət konsepsiyasını reallaşdırmağa nail oldu. Beləliklə, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir. O, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi və bu zəfərlə yürütdüyü 19 illik - ”Güclü ordu - güclü dövlət” strategiyasının və ”Dəmir yumruq” siyasətinin doğru olduğunu Azərbaycana və beynəlxalq ictimaiyyətə sübut etdi. Sübut etdi ki, Azərbaycan ordusu regionda ən güclü orduya malik ölkə statusuna malik olmaqla məğlubedilməzdir, onun qarşısında düşmən çox aciz və zəifdir.

### DÜŞMƏN BİZİM QARŞIMIZDA ACİZDİR. DÜŞMƏNİN BELİNİ QIRIRIQ, QIRACAĞIQ!

Bunu Prezident İlham Əliyev bu gün xalqa müraciətində deyib: ”Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq!”. ”Onların ordusunu, texnikasını demək olar ki, məhv etmişik. Qaçırlar, hələ qaçacaqlar”,- deyən dövlət başçısı bildirib ki, öz doğma dədə-baba torpaqlarını görməyən, işğaldan sonra dünyaya göz açan hər bir azərbaycanlı bir arzu ilə yaşayıb ki, doğma dədə-baba torpaqlarına qayıtsın: ”Biz bunu Cocuq Mərcanlının timsalında gördük, işğaldan sonra doğulmuş gənclər, onların hər biri Cocuq Mərcanlıya qayıtmaq arzusu ilə yaşayıb və qayıdıb. Əminəm ki, bu gün işğalçılardan azad edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşları qayıdacaqlar. O torpaqlarda yaşayacaqlar, sülh, əmin-amanlıq şəraitində yenə də qurub-yaradacaqlar”. Bəli, bu gün onilliklər boyu yurd həsrəti ilə yaşayan vətəndaşlarımızın qısa müddət ərzində öz dədə-baba torpaqlarına qovuşdurulması üçün böyük işlər həyata keçirilir - ”Ağıllı kənd” layihəsinin tətbiq edildiyi Zəngilanın Ağalı kəndi ilə başladı. Və Zəngilanın ”ağıllı kəndi”Ağalı da bu ”Böyük Qayıdış”ın ilk ünvanı, doğma sakinlərinə əbədi qovuşan ilk bəxtiyar diyar oldu. Bütün bunlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının, Müzəffər Ordumuzun, rəşadətli əsgərlərimizin və xalqımızın Birliyi, Həmrəyliyi nəticəsində əldə edilməkdədir. Budur, dünya səviyyəli, cəsarətli LİDER! Budur, xalqın Prezidenti olmaq! Budur sözü imzası qədər dəyərli olan Lider. Və Ermənistanın alçaq əməlləri Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz!: ”Heç kim bizi dayandıra bilməz! Yüz minlik ordunu kim dayandıra bilər?... Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: ”Dəmir yumruq” yerindədir, bunu heç kim unutmasın!”. Bir sözlə, Ermənistanın düşdükləri böhrandan yeganə çıxış yolu sadə məntiqlə gün-gündən güclənən, qalib Azərbaycanın irəli sürdüyü tələbləri qəbul etməkdir. Əks halda ”Dəmir yumruq” yerindədir, bunu heç kim unutmasın!”.

**RƏFİQƏ KAMALQIZI**

# Türk birliyindən dünyaya mesaj!

## İlham Əliyev: "Azərbaycanın həm Türkiyə, həm Türkmənistanla siyasi əlaqələri yüksək səviyyədədir"




Dünya siyasi gündəmini müəyyənləşdirən ölkələrdən birinə çevrilən Azərbaycan dünyaya özünü demokratik ənənələrə sadiq, hüquqi və sosial dövlət kimi təqdim edir. Azərbaycan Prezidenti İlham Əliyevin siyasi xətti, uğurlu diplomatik addımlarının nəticəsidir ki, müasir dünyamızda Avropadan Asiyaya qədər olan məkanlarda Azərbaycan böyük nüfuza sahibdir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin xarici dövlətlərə səfərləri, reallaşan layihələr çərçivəsində özünü büruzə verir. Dövlət başçısının beynəlxalq tribunalardan çıxışları, verdiyi mesajlar yeni çağırışlara cavab olaraq yürüdülən siyasət Azərbaycanın nüfuzunun gündən-günə artmasına səbəb olub. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının məntiqi nəticəsi kimi, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Azərbaycanın xarici siyasətində dünya ölkələri, o cümlədən Avropanın böyük dövlətləri ilə olan əlaqələr müstəsnadır. Dünyada etibarlı tərəfdaş imicini ölkəmizə qazandıran beynəlxalq layihələrdə göstərilən etimad, paytaxtımızda keçirilən möhtəşəm beynəlxalq tədbirlər, yarışlar, dövlətimizin beynəlxalq və regional layihələrdə əsas iştirakçı qismində çıxış etməsi bu əlaqələrin yüksək səviyyədə olmasına dəlalət edir. Regionda, dünyada Azərbaycanla bağlı baş verənlər, böyük siyasi güclərin ölkəmizə münasibəti, Cənubi Qafqazın əsas söz sahibi olan Azərbaycanla əməkdaşlığa böyük önəm verməleri ölkəmizlə münasibətlərin qurulmasına maraqlı olduqlarını birmənalı şəkildə göstərmiş olur. Əlbəttə ki, siyasi sabitlik və təhlükəsizlik, məhz irimiqyası layihələrin reallaşdırılmasında əsas faktorlardır. Güclü və dinamik iqtisadiyyat, inkişaf elə bu və ya digər layihələrin həyata keçirilməsində vacib amillər sırasındadır. Regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verən Azərbaycanın təşəbbüsü ilə qlobal əhəmiyyətli layihələr həyata keçirilir. Müasir dünyamızda türk dünyası ilə əməkdaşlıq və birlik, həmrəyliyin nümayişi bu münasibətləri yeni müstəviyə yüksəldib. Strateji, müttəfiqlik səviyyəsində olan münasibətlər hərtərəfli əməkdaşlığın daha genişlənməsinə səbəbdir. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana səfəri və səfər çərçivəsində əməkdaşlığa dair sənədlərin imzalanması əlbəttə ki, müasibətlərin dostluq və əməkdaşlığa söykəndiyini özündə ehtiva edir. Dövlət başçısının təkcə bu il ikinci dəfə qardaş Türkmənistana səfər etməsi əlaqələrin davamlılığına əsaslanır.

### ”BİZ HAQLI OLARAQ XALQLARIMIZIN ZƏNGİN TARİXİ-MƏDƏNİ İRSİ VƏ BƏŞƏR SİVİLİZASİYASINA VERDİYİ BÖYÜK TÖHFƏLƏRİ İLƏ QÜRUR DUYURUQ”

Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun geniş tərkibdə görüşündə Prezident İlham Əliyev çıxışı zamanı "Azərbaycanın həm Türkiyə, həm də Türkmənistanla siyasi əlaqələri yüksək səviyyədədir. Türkiyə ilə keçən il imzaladığımız Şuşa Bəyannaməsi münasibətlərimizi strateji müttəfiqlik səviyyəsinə çatdırmışdır. 2017-ci ildə Azərbaycan ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır", - deyə bildirib. Cənab Prezident qeyd edib ki, Azərbaycan, Türkiyə və Türkmənistan bir-biri ilə etnik, dini-mədəni köklər və ortaq mənəvi dəyərlər ilə sıx bağlıdır. Biz haqlı olaraq xalqlarımızın zəngin tarixi-mədəni irsi və bəşər sivilizasiyasına verdiyi böyük töhfələri ilə qürur duyuruq. Ölkələrimiz beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ATƏT və digər təsisatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərir və əməkdaşlıq edir". Əlbəttə ki, qurulan münasibətlər ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlığın inkişafına geni imkanlar açıb. ”2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi 45 faiz artaraq 5 milyard dollara çatmışdır. Azərbaycandan Türkiyə iqtisadiyyatına 20 milyard dollara yaxın, Türkiyədən Azərbaycan iqtisadiyyatına isə 14 milyard dollara yaxın sərmayə yatırılmışdır. Bu il Türkmənistan ilə ticarət dövriyyəsi 5 dəfə artmışdır. Bu, rekord göstəricidir.”

### ”BÜTÜN İŞLƏR 2024-CÜ İLDƏ TAMAMLANACAQ VƏ NƏTİCƏDƏ YENİ NƏQLİYYAT DƏHLİZİ YARANACAQ”

Regionda yeni reallıqların müəllifi olan Azərbaycan Prezidenti İlham Əliyev sülh və təhlükəsizlik fonunda siyasət həyata keçirərək iqtisadi gücünü, qüdrətini daha da artırmaqla yeni hədəfləri gerçəkləşdirərək, beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısı olan Azərbaycan öz ərazisində dəmir yolu, avtomobil nəqliyyatı və hava nəqliyyatı ilə bağlı olan bütün əsas layihələri icra etmişdir. Bunun nəticəsində Azərbaycan önəmli tranzit ölkəsinə çevrilmişdir. Ölkə başçısı çıxışında bildirib ki, 2022-ci ilin ilk 10 ayında Azərbaycan ərazisindən keçən ümumi tranzit daşımalarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 80 faizdən çox artmışdır. Bildiyimiz kimi, Azərbaycan Prezidentinin əməli fəaliyyətinin, iradəsinin nəticəsidir ki, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, qlobal əhəmiyyətli iqtisadi zonalar yaradılıb. ”2017-ci ildə əziz qardaşım Rəcəb Tayyib Ərdoğan ilə bərabər Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını etdik. Bu layihəyə əlavə 100 milyon dollardan çox sərmayə qoyulacaq və onun ötürücülük qabiliyyəti hazırkı 1 milyondan 5 milyon tona çatdırılacaq" - deyə Cənab İlham Əliyev iştirakçıların diqqətinə çatdırıb. Təbii ki, hər bir ölkənin tranzit potensialını inkişaf etdirmək üçün, ilk növbədə, qonşu ölkələrlə yaxşı münasibətləri olmalıdır. Etibarlı tranzit ölkə kimi xidmət göstərən Azərbaycan məhz bu münasibətlərin davamlı olmasına təkan verir. ”Hazırda Zəngəzur dəhlizinin açılması ilə fəal məşğuluq”- deyə bildirən dövlət başçısı qeyd edib ki, Zəngəzur dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsində aparılan işlərin dəmir yolu xətti üzrə 40 faizi, avtomobil yolu üzrə 70 faizi icra olunub.

### ”BELƏ GÖRÜŞLƏR BUNDAN SONRA MÜNTƏZƏM OLARAQ KEÇİRİLƏCƏK VƏ QARDAŞ ÖLKƏLƏRİMİZ ARASINDA MÜNASİBƏTLƏRİN DAHA DA İNKİŞAF ETMƏSİNƏ BÖYÜK TÖHFƏ VERƏCƏK”

Cənab Prezidentin Türkmənistana səfəri çərçivəsində Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Zirvə Görüşünün Birgə Bəyanatı qəbul edilib. Dövlətlərarası sənədlər imzalanıb. Azərbaycan, Türkiyə və Türkmənistan liderləri arasında əldə olunan razılaşmalar və ticarət, mədəniyyət, enerji, nəqliyyat kimi sahələrdə imzalanan müxtəlif sənədlər, şübhəsiz ki, hərtərəfli əməkdaşlığın daha da möhkəmlənməsinə öz töhfəsini verəcək. Azərbaycan-Türkiyə-Türkmənistan arasında Birinci Zirvə Görüşünün Birgə Bəyanatının qəbul edilməsi dövlət başçılarının güclü iradəsini ortaya qoymuş oldu. Tarix və dil baxımından, ümumi köklərə malik olan üç xalqın əməkdaşlığımızın genişləndirilməsi üçün geniş imkanlar var və bu gələcək uğurlu şaxəli əlaqələrin daha genişlənməsinə töhfə olacaq. Prezident İlham Əliyev bu Zirvə Görüşünün regional əməkdaşlığa, nəqliyyat, logistika, ticarət sahələrində əlaqələrin genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib: ”Belə görüşlər bundan sonra müntəzəm olaraq keçiriləcək və qardaş ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etməsinə böyük töhfə verəcək" - deyə Prezident bildirib.

*Zümrüd BAYRAMOVA*

# Baş nazir Əli Əsədov Tbilisidə Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb

**Tbilisidə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 15-də Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstan Prezidentinə çatdırdı.**

Bildirildi ki, Azərbaycan-Gürcüstan münasibətlərinin geniş gündəliyi var. İki ölkə arasında həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın olduğu vurğulandı.





Azərbaycan Prezidentinin cari ilin oktyabrında Gürcüstana səfərinin əhəmiyyəti qeyd edildi. Azərbaycan və Gürcüstanın birgə həyata keçirdikləri nəqliyyat və enerji layihələrinin əhəmiyyəti vurğulandı. Həmçinin Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Tbilisidə keçirilən 9-cu iclasının önəmi qeyd edildi. Görüşdə iki ölkə arasında əməkdaşlığın perspektivləri ətrafında da fikir mübadiləsi aparıldı.

# "ŞUŞA İLİ" - Böyük Qayıdışın xəyaldan reallığa çevriləcəyi il




Bu gün Ali Baş Komandan, Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa İli" elan etməsi uğurla başa çatmaqdadır. Düz ötən ilin son bu ayı Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində 2022-ci ili "Şuşa İli" elan etdi və 5 yanvar 2022-ci ildə isə Prezidentin 2022-ci ilin "Şuşa İli" elan olunması haqqında Sərəncamı ilə bu qərar hüquqi qüvvəyə mindi. Bu Sərəncam, əslində, Azərbaycanın tarixən mədəniyyət paytaxtı olan Şuşanın beynəlxalq aləmdə tanıdılması baxımından çox önəmlidir. Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra Azərbaycana qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək. Dövlət başçısı xalqa müraciətində bildirdi: "Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasının sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa İli" elan edirəm". Bu qərar dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının qəlbini fərəh, böyük qürur və iftixar hissi ilə doldurdu. Prezidentin 7 may 2021-ci il tarixli sərəncamı ilə zəngin və şanlı tarixi keçmişə malik Şuşa şəhəri mədəniyyət paytaxtı elan edildi. Bunun ardınca, 2022-ci ilin Şuşa İli elan edilməsi həm tarixi, həm də mədəni baxımdan mühüm əhəmiyyət kəsb edən qədim şəhərimizə verilən ən böyük dəyərin göstəricisidir.

### "ŞUŞA İLİ"NİN ELAN EDİLMƏSİ HAQQINDA SƏRƏNCAM

"Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik. Mən bu sözü vermişəm və bu sözümü də icra edəcəyəm. Necə ki, əvvəlki dövrlərdə demişdim biz heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik və vermədik. Demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq və qaldırıldı",-deyən Ali Baş Komandanımız Prezident İlham Əliyevin keçən ilin son dəqiqələrində, Yeni ilin astanasında 2022-ci ili "Şuşa ili" elan etməsi artıq bir ayını yaşadığımız ilin baş xəttini müəyyən etmişdir.

Bu ilin Şuşa ünvanlı, Şuşa hədəfli olması ilə dövlət başçımız həm xalqımızın, həm də dünya ictimaiyyətinin diqqətini bir daha bu qədim Azərbaycan şəhərinə yönəltmişdir. Bununla Azərbaycan dövləti Qarabağın qədim Azərbaycan torpağı və Şuşanın da əsl Azəraycan şəhəri olduğunu bir daha dünyaya çatdırır. Prezident İlham Əliyevin "Şuşa ili" çağrışı qədim Şuşa şəhərinin işğaldan azad edildikdən sonra milli memarlıq ənənələri əsasında yenidən bərpa edilməsinə geniş meydan açacaqdır. Çox yaxşı cəhətdir ki, bu gün cənab Prezident Şuşanın yenidənqurulması proseslərinə şəxsən özü rəhbərlik edir. Və bu, Şuşa şəhərinin, həqiqətən də, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəyinə real inam yaradır. Çünki Şuşa Azərbaycan üçün, sadəcə, bir şəhər deyil, xalqımızın maddi-mənəvi dəyərlərini özündə əks etdirən rəmz, əziz məkanıdır. Biz bunu 44 günlük Vətən müharibəsi zamanı da gördük. Belə ki, Azərbaycan Ordusu beynəlxalq təzyiqlərə rəğmən Şuşanı azad etməyənədək dayanmadı. Bütün bunları ümummilli liderimiz Heydər Əliyevin deyimi ilə ifadə etsək, "Şuşasız Qarabağın olmadığını" göstərdi. Həmçinin müharibənin gedişində Ali Baş Komandan, Prezident İlham Əliyev də vurğuladı ki, "Şuşasız bizim işimiz yarımçıq qalar". Ona görə də Azərbaycan Ordusunun başlıca məqsədi Şuşanı azad etmək idi. Bu səbəbdən 44 gün davam edən müharibədə Ali Baş Komandanımız Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə Şuşanı qanları, canları bahasına azad etdilər. Cənab Prezidentin 2020-ci il 8 noyabrında Şəhidlər Xiyabanından böyük qürur hissi ilə səsləndirdiyi "Əziz Şuşa, sən azadsan!" sözlərinin ölkə miqyasında, dünya azərbaycanlıları arasında doğurduğu böyük sevinci heç nə ilə müqayisə etmək mümkün deyil. Həmin tarixi anlarda hər bir azərbaycanlı, hər bir gənc özünü dünyanın ən xoşbəxt insanı hesab edirdi. Ən əsası isə "Şuşa ili"nin elan edilməsi bu şəhərin Azərbaycana məxsus olduğunu bir daha bütün dünyaya göstərir. Şuşa azad edildiyi ilk günlərdən burada geniş miqyaslı bərpa-quruculuq işlərinə başlanıldı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən şəhərin yenidən qurulması, abadlaşdırılması diqqət mərkəzində saxlanıldı. Yolların, tarixi abidələrin bərpasına, şəhərin su, elektrik təchizatının qaydaya salınmasına xüsusi önəm verildi. Bu, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa şəhərinə dəfələrlə etdikləri səfərlər zamanı bir daha öz təsdiqini tapdı.

Belə bir qısa vaxtda gerçəkləşdirilən və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərib. Bir sözlə, şanlı ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən təmizlərkən, istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən və müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası dövlətimizin başçısının daimi nəzarəti altında icra olunub. Qısa müddət ərzində Şuşanın əsl tarixi simasının bərpası yönündə genişmiqyaslı işlər görülüb. Şəhərin Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün, muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsi kimi diqqət çəkib.

### QALİB LİDERİN QƏTİYYƏTİNİN VƏ UZAQGÖRƏNLİYİNİN, "ƏZİZ ŞUŞA, BİZ SƏNİ DİRÇƏLDƏCƏYİK!" SÖZÜ İLƏ ƏMƏLİNİN ÜST-ÜSTƏ DÜŞMƏSİNİN REALLIĞIDIR

Müzəffər Ali Baş Komandan, Böyük Sərkərdə, Prezident İlham Əliyevin 19 illik gərgin əməyinin nəticəsində formalaşan güclü Ordumuz 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad etdi, ölkəmiz öz ərazi bütövlüyünü təmin etdi, "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı. Və İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Və bir sözlə, bu ilin Şuşa ünvanlı, Şuşa hədəfli olması ilə dövlət başçımız həm xalqımızın, həm də dünya ictimaiyyətinin diqqətini bir daha bu qədim Azərbaycan şəhərinə yönəltmişdir. Bununla Azərbaycan dövləti Qarabağın qədim Azərbaycan torpağı və Şuşanın da əsl Azəraycan şəhəri olduğunu bir daha dünyaya çatdırır. Bir sözlə, belə bir qısa vaxtda gerçəkləşdirilən və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi və bu gün Şuşa yenidən qurulur, özü də daha möhtəşəm, daha əzəmətli. Budur, "Şuşa İli"nin sevinci, qüruru.

Bu gün düşmənin 28 illik işğal dövründə burada qura bilmədiklərini Azərbaycan dövləti "Şuşa İli"ndə həyata keçirdi və bu proses bu gün də davam edir və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi və "Şuşa ili" Azərbaycanın tərcümeyi-halında hər zaman yaddaqalan olacaq.

**RƏFİQƏ HÜSEYNOVA**

## "Prezidentin digər səfərləri kimi Türkmənistan səfəri də ölkəmiz üçün uğurlu oldu"



"Azərbaycan Prezidenti cənab İlham Əliyevin Türkmənistana səfəri çox böyük əhəmiyyət daşıyır. Hər şeydən öncə səfər Azərbaycan, Türkiyə və Türkmənistan arasında əməkdaşlığın genişləndirilməsi baxımından çox önəmlidir. Ölkə prezidenti bu səfər çərçivəsində nitqi zamanı mühüm məqamlara toxunub". Bu fikirləri SİA-ya açıqlamasında deputat Elşad Mirbəşiroğlu səsləndirib.

Onun sözlərinə görə, ilk öncə Azərbaycan-Türkiyə münasibətlərini xarakterizə edərək ötən il bu iki dövlət arasında bağlanmış strateji müttəfiqlik haqqında sənədi xatırladıb, ticarət dövriyyəsinin genişləndirilməsi istiqamətində atmış olduğu addıma toxunub: "Prezident Azərbaycan-Türkmənistan münasibətlərinin inkişafda olduğunu da bildirdi. 2017-ci ildə bu iki dövlət arasında strateji tərəfdaşlıq qurulub və Azərbaycan-Türkiyə-Türkmənistan bütövlükdə regionun nəqliyyat xəritəsinin formalaşmasında çox mühüm rol oynamaqdadır. Nəqliyyat logistika sahəsində üç ölkənin əməkdaşlığı hər üçünün maraqlarına cavab verəcək vacib nəticələri şərtləndirməkdədir".

Deputat sözlərinə davam edərək bildirib ki, ölkə prezidenti Azərbaycanın nəqliyyat və logistika sahəsində əməkdaşlıq potensialının yüksəkliyinə diqqət yönəldib: "Qeyd edib ki, Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin önəmli iştirakçısıdır. Azərbaycanın logistika imkanları olduqca genişdir. Eyni zamanda, Zəngəzur dəhlizi məsələsinə toxunan İlham Əliyev vurğulayıb ki, dəmir yolu üzrə işlərin 40 faizi, avtomobil yolu üzrə isə 70%-i gerçəkləşdirilib. 2024-cü ildə artıq işlərin tamamlanması başa çatacaq. Cənab İlham Əliyev bununla ona işarə etdi ki, həmin dövrdə də Zəngəzur dəhlizinin açılması ehtimalı çox böyükdür. Bu səfər zamanı Azərbaycan, Türkiyə və Türkmənistan arasında önəmli əməkdaşlıq sənədləri imzalanıb. Bu ona dəlalət edir ki, bu üçtərəfli görüşdən sonra onlar arasında olduqca uğurlu yeni əməkdaşlıq platforması müşahidə olunacaq. Bu platforma çərçivəsində müxtəlif istiqamətlərdə əməkdaşlıq inkişaf etdiriləcək. Nəqliyyat və logistika sahəsi əməkdaşlığın prioritet istiqaməti kimi özünü göstərəcəkdir. Düşünürəm ki, İlham Əliyevin digər səfərləri kimi Türkmənistan səfəri də ölkəmiz üçün uğurlu oldu".

*Ləman Əlizadə*



## "Azərbaycan tərəfi dialoqa hər zaman açıqdır"

"Bir sıra digər hallarda bəzi açıqlamalarda Azərbaycanı dialoqa çağırıblar. Bu gün biz faktlarla bir daha göstərdik ki, Azərbaycan tərəfi dialoqa hər zaman açıq olub. Dialoqu irəli aparan tərəf məhz Azərbaycan tərəf olub. Təqribən son iki ay ərzində Azərbaycanın bu sahədə çoxsaylı müraciət etməsi, dekabrın 3-də görüşün keçirilməsi, müvafiq orqanlar tərəfindən yol xəritəsinin hazırlanaraq dekabrın 5-də təqdim olunması, ayın 10-da monitorinqin keçirilməsinə dair razılığın əldə edilməsi Azərbaycan tərəfinin dialoqa açıq olduğunu, bu məsələnin əməkdaşlıq şəraitində həll edilməsini dəstəklədiyini bir daha göstərir. Azərbaycan bu yanaşmanı daha əvvəl də göstərib. Laçın dəhlizinə alternativ yolun çəkilməsi zamanı orada yerli erməni əhali ilə ünsiyyətlər də oldu, onların bir sıra xahişləri nəzərə alınmışdı. Sərsəng su anbarı ilə bağlı müzakirələrdə əməkdaşlıq yerli erməni mütəxəssisləri və əhalisi ilə razılaşdırılmış formada həyata keçirildi. Hesab edirik ki, bunun mənfi nəticələri olmamışdı."

Bu sözləri jurnalistlərə müsahibəsində xarici işlər naziri Ceyhun Bayramov deyib. Nazir deyib ki, bu dəfə bu addımların atılmasının, təxribatların həyata keçirilməsinin arxasında duran insanlar, qüvvələr var. Onlar bunda maraqlı deyillər. Burada Azərbaycana deyil, qarşı tərəfə çağırışlar, ciddi xəbərdarlıqlar edilməlidir ki, təxribatlara əl atmasınlar. Onlar təxribatlarla heç nəyə nail ola bilməyəcəklər.

"Azərbaycan tərəfinin yanaşması konstruktivdir, ədalətlidir. Bütün məsələlər ölkəmizin qanunları çərçivəsində, suverenliyinə hörmət olunmaqla həll edilməlidir. Qarabağda yaşayan ermənilərin Azərbaycan qanunları çərçivəsində orada qalmaq, yaşamaq, öz həyatlarını qurmaq haqları var və Azərbaycan dövləti onların bu haqqını tanıyır", - deyə Ceyhun Bayramov əlavə edib.

# “Aksiyada iştirak etmək qürurvericidir”

SORĞU

**Hazırda Laçın-Şuşa yolunda etiraz aksiyası həmyerlilərimiz tərəfindən davam etdirilir. Onlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii ehtiyatların qanunsuz istismarına etirazlarını bildirir.**

Bildirək ki, ekoloji fəallar çadırlar qurublar və onları təbii ehtiyatların qanunsuz istismarının və talan edilməsinin fəallaşması, o cümlədən ekoloji nəticələrin pisləşməsi müşahidə edilən Qızılbulaq qızıl yatağına və Dəmirli mismolibden yatağına buraxmayınca oradan getmək fikrində deyillər.

Əllərində plakatlar və bayraqlar tutmuş, şüarlar söyləyən dinc etirazçıların qarşısını rus sülhməramlıları almaq istəyir. SİA mövzu ilə bağlı aksiya iştirakçıları arasında sorğu keçirib.

**”İrəli” İctimai Birliyinin əməkdaşı İlkin Quluzadə:** ”Aksiya artıq 4-cü gündür ki, davam edir. İlk günlərdən ərazidəyəm və






rus sülhməramlılarının müvəqqəti yerləşdiyi Laçın-Şuşa-Xankəndi yolunun Şuşa girişi hissəsindən keçən ərazidə onlar yolu bağlayıb. Media nümayəndələrinin və ekoloqların əraziyə girişinin qarşısı alınır.

Bizim bu ərazilərdə yerləşən yataqlarımız qanunsuz şəkildə istismar olunur. Oradan əldə olunan qızıllar, digər qiymətli mineralların lazımi hissələrini özlərinə götürür, yerdə qalan çirkli maddələri isə bizim çaylarımıza axıdırlar. Bu da ölkəmizə və dünyaya ekoloji cəhətdən böyük ziyan vurmaqdır.

Aksiyanın ilk günündən gənclər və QHT nümayəndələri aktiv şüarlar səsləndirir. Biz ekoloji çirkləndirməyə yox deyirik.

Eyni zamanda, dünən səhər saatlarından rus sülhməramlıları yeni canlı qüvvələr cəlb etdilər. Görünən odur ki, onlar nəninki yolu açmaq niyyətində deyil, həm də aksiyanın müddətini daha da uzatmağa çalışırlar. Biz sonadək aksiyaya davam edəcəyik.

Bu gün rus sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazidə səsgücləndiricilər gətirdilər. Çünki biz gecə və gündüz olaraq müəyyən saatlarda milli musiqilərimizi səsləndirirdik. Buna qarşılıq olaraq onlar da öz musiqilərini səsləndirmək istəyirdilər”.

**”Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyindən Samirə Fərəcova:** ”Ekoloji təcavüzə qarşı aksiyada iştirak etmək çox qürurverici bir hiss idi. Hər şeydən öncə onu qeyd edə bilərəm ki, neçə-neçə şəhidlərimiz məhz bu torpaq uğrunda canından keçiblər. Bir Azərbaycan gənci kimi bu aksiyada iştirak etmək də bizə düşür və borcumuzdur. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərimizdə təbii sərvətlərimizin qeyri-qanuni yolla



istismarı yolverilməzdir və Azərbaycan xalqı əsla belə bir vəziyyət qarşısında sakit durmaz və durmayacaqdır. Aksiya zamanı bir neçə şüar səsləndirirdik. ”Ekoloji terrora son”, ”Rusiya sülhməramlıları ekoloji terrora göz yumur”, ”Sülhməramlılar öz missiyasını düzgün yerinə yetirməlidir”, ”Gənclər ekoloji təcavüzü dayandırmağı tələb edir” kimi şüarlar səsləndirərək dünya ictimaiyyətinin diqqətini baş verən bu qanunsuzluqlara göz yummamağa çağırırdıq.

Aksiya boyunca, əslində, ağlımda belə bir düşüncə dolanırdı: ”Hava çox soyuqdur. Biz isə qalın geyimlərimizlə buradayıq”. Ac deyilik. Lakin müharibə vaxtı əsgərlərimiz necə çətinliklərdən keçərək Şuşanı, Laçını, Xankəndini işğaldan azad etmişlər. Belə bir xalqın övladı olmaq çox qürurvericidir.

Aksiya zamanı gənclərlə birgə rus sülhməramlılarının gözlərinin içinə baxaraq qeyd etdiyim şüarları səsləndirən zaman keçirilən hissləri ifadə edəcək sözləri seçə bilmirəm. Sadəcə, onu deyə bilərəm ki, himnimizi qarşılarında ucadan, birlikdə oxumaq əvəzolunmaz bir hissdir. ”Çırpınırdın Qaradəniz” şeirini oxuyarkən isə tamam başqa hisslər keçirir insan. Hansı ki, vaxtilə bu şeirin müəllifi Əhməd Cavadı türkçülüklə bağlı repressiya qurbanı etmişdilər. İndi isə biz Azərbaycan gəncləri bunu rus sülhməramlılarının qarşısında ucadan oxuyurduq.

21 yaşında bir Azərbaycan gənci olaraq belə bir aksiyada iştirak edib, belə bir hissi dadmaq möhtəşəm və qürurvericidir!”.

**”İrəli” İctimai Birliyinin üzvü Rəşad Nadiroğlu:** ”Rus sülhmə-



ramlı qüvvələri artıq 4 gündür ki, çəkilmək istəmirlər, əraziyə gətirdikləri ağır artilleriya və qalmaq üçün nəzərdə tutulan xüsusi avadanlıqlar, hələ bir müddət burada qalacaqlarının sübutudur.

Aksiya iştrakçıları günü-gündən artmaqdadır. Səsimizi beynəlxalq arenaya çatdırmağ üçün hərkəs səfərbər olub. Rusların birtərəfli hərəkət etməsi həqiqətən də hamının narazılığına səbəb olub. Burada bizim üçün hər cür şərait yaradılıb. Qidalanma, istilik və digər texniki məsələlərdə operativ şəkildə yardım edilir”.

**Bakı Dövlət Universiteti, Biologiya fakültəsi, Botanika və bitki fiziologiya kafedrasının 2-ci kurs Magistrantı Gülüstan Mux-**




**tarova:** ”Biz ekoaktivistlər olaraq bu gün Laçın yoluna yaxınlaşmışıq və sülhməramlılara öz şüarlarımızı duyururuq. Həmçinin, ermənilərə də səslənirik ki, onlar bizim sərvətlərimizi darmadağın etməkdən imtina etsinlər.

Belə ekoloji terror yaratmaqla onlar nəinki Azərbaycana, həm də ekologiya və təbiətimizə ziyan vururlar. Onlar bunun bədəlini ödəməlidirlər.

Heyvanat aləmi, bitki aləmi və su hövzələrinə atılan çirkab sular ekoloji terrordur. Bildirmək istəyirəm ki, biz məqsədimizdən dönən deyilik”.

**Bakı Dövlət Universiteti, Biologiya fakultəsi, Biologiya müəllimliyi ixtisası, 4-cü kurs tələbəsi Ramil Ağayev:** ”Biz ekoaktivistlər olaraq Laçın yoluna yığılmışıq. Rus sülhməramlıları tərəfindən Xankəndi-Gorus yolu hər



iki tərəfdən bağlanıb. Biz burada ”Ekologiyanı qoruyaq”, ”Ekoloji terrora yox deyək!” aksiyasını həyata keçiririk.

Ermənilər bizim təbii sərvətlərimizdən qeyri-qanuni yolla istifadə edirlər. Bunun qarşısını almaq lazımdır”.

***Ayşən Vəli***

SİYASİ RAKURS+ÖZƏL

# Laçın-Şuşa-Xankəndi yolu: nə baş verir və daha nə baş verə bilər?




## Ekoaksiya iştirakçıları ilə Xankəndi arasındakı məsafə cəmi 14 km-dir..!

Fakt budur ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşmiş Rusiya sülhməramlıları kontingentinin (RSK) məsul olduqları ərazilərimizdəki ermənilər Volkov-Vardanyan tandeminin aşkar girovlarına çevriliblər. O da əbəs deyil ki, artıq bir neçə gündür, Şuşadan Xankəndiyə aparan Laçın yolu üzərində Qarabağ cinayətkar-separatçı rejiminin ekologiyamıza vurduğu hədsiz, dəhşətli zərər və ziyanların aradan qaldırılması istiqa-



mətində kütləvi etirazlar davam edir.

Həmin aksiyada iştirak edən şəxs olaraq həm də belə nəticəyə gəlirəm ki, bu tələblərin daxilində yalnız Qarabağdakı ekologiyamıza qarşı davam edən terror münasibəti dayanmır, eyni zamanda, faydalı qazıntılarımızın, qızıl və s. yataqlarımızın qanunsuz istismarına qarşı etirazlar da dayanır. Üstəlik, həm də üçtərəfli bəyanatda yer alan digər həll edilməmiş məlum məsələlər də məhz buraya aiddir. Daha dəqiq desək, bütün bunlar bir-biri ilə sıx bağlı olan məsələlərdir və həmin məsələlərin dərhal həll edilməsi artıq geriyə atılmayacaq tələblərə söykənir.

## Ruben Vardanyan: ”Azərbaycanlılar kimdirlər ki, yolu bağlasınlar...”

Maraqlıdır ki, Azərbaycan xalqının, vətəndaş cəmiyyətinin haqlı etirazları müqabilində yaranmış situasiyanı həll etmək yerinə qarşı tərəflər, xüsusilə Ermənistan hakimiyyəti və ona bağlı Qarabağ separatçı-cinayətkar rejimi, eləcə də general Volkovun timsalındakı



havadarlar və Qərbin ermənipərəst dairələri cəhd edirlər ki, Bakı məhz Vardanyan kimi cinayətkar fərdlə hər hansı müzakirələrə getsin. Təbii ki, bu, ümumiyyətlə, mümkün olmayan bir məsələdir.

Yeri gəlmişkən, bugünlərdə həmin Vardanyan sosial şəbəkədə çıxdığı canlı yayım məsələsi ilə hərfbəhərf bu sözləri deyib: ”Azərbaycanlılar kimdirlər ki, yolu bağlasınlar, onların bunu etməyə heç bir hüquqları və ixtiyarları yoxdur” (???!!!-R.R.)

Belə olan halda xatırladaq ki, bu gün Şuşada-Xankəndi üzərindəki Laçın yolu istiqamətində ekoterrora son qoyulması məqsədi ilə toplaşmış yüzlərlə Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçilərinin, ekoloqlarının, fəal insanlarımızın Vardanyana olan cavabı belədir - əslində, sənin bu kimi fikirlər bildirməyə nə hüququn, nə də ixtiyarın var. Yolu isə əsla Azərbaycan tərəfi bağlamayıb. Əks halda RSK-ya məxsus humanitar yüklərin Xankəndiyə buraxılmasına şərait yaradılmazdı.

Cinayətkar və quldur Vardanyan, sən isə kim olmağımızı gəlib öz gözlərinlə görə bilərsən. Yol elə də uzaqda deyil, aksiya iştirakçıları ilə Xankəndi arasındakı məsafə cəmi 14 km-dir, gəl və cavabını al, əgər cürətin çatır-



sa...

## Bakı isə öz mövqeyini ən yüksək, qətiyyətli səviyyədə bəyan edib - heç bir separatçı, terrorçu və quldur ilə danışıqlar aparılmayacaq!

Bu mənada, Ruben Vardanyan oynadığı oyunun uzun müddət davam etməyəcəyini ya anlamır, ya da hər şeyi çox gözəl anlayır. Sadəcə, heç nə əldə etməyəcəyini, əksinə, hər şeyini itirəcəyi oyunun nəticələrini bilə-bilə davam edir. Vardanyan onu da yaxşı bilir ki, oyunu uduzarsa, yaxud oyundan kənara çəkilərsə Kreml onu əfv etməyəcək. Yəni hər iki



halda bu belədir. Bakı isə öz mövqeyini ən yüksək, qətiyyətli səviyyədə bəyan edib - heç bir separatçı, terrorçu və quldur ilə danışıqlar aparılmayacaq. Və ən maraqlısı budur ki, Kremldə planı cızılmış Vardanyan oyununun iflasa məruz qalacağı halda alternativ plan hazırlanmayıb. Beləliklə, ekoloqlarımız bu planı yerli-dibli dəfn etdi!

## O da məlumdur ki, nəticə olmadan kimsə heç yerə getməyəcək və əksinə, aksiya iştirakçılarının da sayı axın-axın artacaq!

Keçək digər məsələyə. Yuxarıda da qeyd edildiyi kimi, Laçın-Şuşa-Xankəndi yolundakı vətəndaş cəmiyyətinin aksiyaları davam edir, ancaq hər kəsə aydındır ki, gec, ya da tez bu aksiya başa çatacaq. Ona görə də situasiyanı gecə-gündüz izləyən hər kəsi bir sual maraqlandırır: bəs bu aksiya nə ilə başa çatacaq? Çünki o da məlumdur ki, nəticə olmadan kimsə heç yerə getməyəcək və əksinə, aksiya iştirakçılarının da sayı axın-axın artacaq. Necə deyərlər, geriyə yol yoxdur.

Fəqət, gözlənilənlər də oldu. Məsələn, ABŞ-In Dövlət Departamentinin mətbuat katibi Ned Prays tvitter mikrobloqunda bunları yazıb: ”Laçın dəhlizinin blokadaya alınması ağır humanitar nəticələrə gətirib-çıxarıb və danışıqlar prosesini geriyə atır. Azərbaycan höku-




mətini dəhlizdə sərbəst hərəkəti bərpa etməyə çağırırıq. İrəliyə yol yalnız danışıqlar vasitəsi ilə mümkündür” (???!!!-R.R.)

Təbii ki, fransızlar da bekar qalmayıblar. Fransanın xarici işlər nazirliyi bəyan edib: ”Fransa ”Dağlıq Qarabağda” (dırnaqlar bizimdir-R.R.) yaşayan əhalinin hüquqlarına hörmət etməyə, yükdaşınma prosesinin qeyd-şərtsiz(???!!!) bərpa olunmasına çağırır”.

## ABŞ-ın Dövlət Departamentinin rəsmisi Ned Praysa xatırlatma, yaxud Fransanın Azərbaycana olan münasibəti məhz Makronun simasızlığında, rilakarlığında bütün mənalardan özünü sübuta yetirib!

İndi isə ayrı-ayrılıqda! Məgər Ned Prays öz təbirincə ağıl qoymağa çalışdığı bir vaxtda bir dəfə düşündümü ki, danışıqlar prosesini



məhz Ermənistan hakimiyyəti və ona bağlı olan Qarabağ separatçıları pozurlar? Azərbaycan hökuməti 2020-ci ilin 10 noyabrından etibarən Azərbaycanın Qarabağ iqtisadi rayonunun mövcud ərazisinə yüklərin daşınması üçün kifayət qədər geniş imkan və şəraitlər yaratdı.

Amma nəticədə Ermənistandan Qarabağa İrandan silah-sursatlar, silahlı dəstələr, xaricdən gətirilən muzdlu terrorçular, təxribat-diversiya qruplar daxil olmağa başladılar. Üstəlik, rəsmi Bakının icazəsi olmadan Azərbaycanın suveren ərazilərinə xarici diplomatlar ard-arda səfərlər edərək, əslində, vəziyyətin gərginləşməsinə səbəb oldular. Onların içində amerikalılar da az olmayıb!

Fransa XİN-nə gəldikdə isə, onların ümumiyyətlə, nə isə danışmağa, deməyə ixtiyarları yoxdur. Fransanın Azərbaycana olan münasibəti məhz Makronun simasızlığında, riyakarlığında bütün mənalardan özünü sübuta yetirib. Əslində, Azərbaycan Fransadan tələb edir ki, burnunu ölkəmizin daxili işlərinə salmasın və qeyd-şərtsiz (!!!-R.R.) olaraq çəkilib kənarda dayansın, nəyə görə belə vəziyyətə düşdüyünü özü üçün araşdırsın! Lakin daha bir faktor...

## Nala-mıxa döyəcləməyin vaxtı çoxdan bitib - açıq münasibətlər ortaya qoyulmalıdır!

Noyabrın 14-də düz 8 nəfər azərbaycanlı Kəlbəcər rayonunun Çıraq kəndində piyadalar əleyhinə minalara düşdülər. Əvvəlcə minaya təmir-tikinti şirkətinin dörd əməkdaşı düşdülər, ardınca isə hadisə yerinə gedən daha dörd hərbi qulluqçumuz.

Nəticədə, bir vətəndaşımız həlak olub, qalanları isə müxtəlif dərəcəli xəsarətlər almaqla yaralanıblar. Bu fakt da sübut edir ki, erməni silahlı qüvvələrinin azərbaycanlılara qarşı terror siyasətləri davam edir. Və hazırkı dövrə qədər, yəni 1991-ci ildən 2021-ci ilə qədər mina qurbanlarına çevrilmiş azərbaycanlıların sayı 3355 nəfərdir! Ona görə də ”yükdaşınma prosesinin qeyd-şərtsiz(???!!!) bərpa olunmasını” tələb edən Fransa XİN-i, yaxud ”Laçın dəhlizinin blokadaya alınması ağır humanitar nəticələrə gətirib-çıxarıb”, deyə bəyan edən ABŞ-ın Dövlət Departamenti yenidən dərindən düşünməklə, əslində, nə demək istədiklərini daha müfəssəl, aydın izah etsinlər, nalamıxa döyəcləməsinlər!

## Böyük Britaniyadan nümunəvi addım!

Yaxud, necə olur ki, Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Old 8 nəfər azərbaycanlı vətəndaşın minalara düşmələrinə görə narahat olduğunu və kədərləndiyini bildirir, fransalı, amerikalı başbilənlər isə tamamilə başqa istiqamətdən bəyanatlar yayırlar? Britaniyanın ölkəmizdəki səfiri tvitter səhifəsində yazıb: ”Dünən Kəlbəcərdə 8 nəfərin minaya düşməsi, nəticədə yaralıların və ölənlərin olması xəbəri məni çox kədərləndirdi. Mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Qurbanların tezliklə sağalmasını arzulayıram”.

Cənab Ferqus Ol isə aparıcı ölkələr arasındakı səfirlərdən yeganə şəxsdir ki, səmimiyyət və ən əsası, əsl İNSANLIQ nümayiş etdirdi. Amma bizə ”ağıl” qoymağa çalışan, ”tələblər” irəli sürməyə cəhd edən ABŞ, Fransa kimi ölkələrin səfirləri isə ağızlarına su alıb susdular. Nədənsə heç Aİ-nin də səfirinin cınqırı çıxmadı...



## Eyni hadisə ermənilərin başına gəlsəydi...

Eyni hadisə ermənilərin başlarına gəlsəydi sizli-bizli indi elə hay-küylərin şahidlərinə çevriləcəkdik ki, gəl-görəsən! Bütün bunlardan sonra Laçın yolunda toplaşan və sülh, əmin-amanlıq istəyən Azərbaycan vətəndaşlarını az qala ”terrorçu” kimi təqdim etməyə çalışan məlum dairələr yaxşı olardı ki, məhz Azərbaycanın ərazilərində -Xankəndidə və ətrafında baş alıb gedən özbaşınalıqları, cinayətkarlıqları, xüsusilə ekoterrorizmi araşdırıb bəlkə də ömürlərində bircə dəfə doğru-dürüst nəticəyə gəlsinlər. Yox, bunu etmirlərsə, ya da etmək istəmirlərsə bu zaman bir zəhmət - çəkilib bir kənarda dayansınlar və ayağımıza dolaşmasınlar, əks halda möhkəm əzilərlər!

***Rövşən RƏSULOV***

# 2022-ci il: BÖYÜK QAYIDIŞIN ilk karvanını yola saldıq

## İlham Əliyev: "Dünya müharibələrinin tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb"



Artıq 2022-ci ilin son günlərini yaşayırıq. Yola salacağımız il ölkə həyatının hər bir sahəsində qazandığımız uğurları, yenilikləri ilə yaddaşlara köçür. Zamanın hər günü sanki bizim üçün tarixləşmiş olur və görülən işlərə nəzər saldıqda onun bizim xeyrimizə işlədiyini görərik. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı tədbirlər, imzalanan sərəncamlar, dövlət proqramları ölkəmizin bu günü və gələcəyi üçün hesablanmış layihələrin reallaşmasına səbəb olur. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Milli Ordumuzun Vətən Müharibəsində qələbəsi və Zəfərimizin yazılması ilə Azərbaycan tamamilə yeni bir dövrə qədəm qoymuş oldu. Biz artıq işğaldan azad edilmiş torpaqlara qayıdırıq və həmin yerlərdə yeni bir həyat başlayır.

Azərbaycanın işğalçı Ermənistan üzərində parlaq qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verilib. Bildiyimiz kimi, işğal altında saxlanılan ərazilərimizdə dağıdılan yaşayış məntəqələri, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb, tarixidini abidələrimizə ciddi ziyan dəyib, fərdi və çoxmənzilli yaşayış evləri məhv edilib. Bu gün artıq ərazilərimizdə intensiv şəkildə bərpa və yenidənqurma işləri ardıcıl olaraq həyata keçirilir. "Dünya müharibələrinin tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb", - deyə çıxışlarının birində bildirən Cənab Prezident bu işlər haqqında Azərbaycan vətəndaşlarının müntəzəm olaraq məlumatlandırıldığını diqqətə çəkib: "Bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və biz buna nail olacağıq".






Bildiyimiz kimi, işğal altında yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalareyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib. Bu gün 30 ilə yaxın işğal altında olan torpaqlarımızda abadlıq-quruculuq işləri vüsət alıb.

### "BƏLKƏ DƏ DÜNYA PRAKTİKASINDA, DÜNYA TARİXİNDƏ BU QISA MÜDDƏT ƏRZİNDƏ, MİNALANMIŞ ƏRAZİDƏ BEYNƏLXALQ HAVA LİMANLARI TİKİLMƏMİŞDİR"

Dövlət başçısının işğaldan azad olunan ərazilərə səfərləri çərçivəsində yeni layihələrin həyata keçirilməsinə start verilir. Füzuli, Şuşa, Zəngilan kimi işğaldan azad olunan ərazilərdə aparılan abadlıq-quruculuq işləri uğurla davam etdirilir. Artıq bildiyimiz kimi, Füzuli, Zəngilan beynəlxalq hava limanları qısa bir zamanda tikilərək istifadəyə verildi. Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edildi. "Bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir", - deyə Prezident bildirib. Görülən irimiqyaslı işlər bu ərazilərin müasir bir şəhərə çevriləcəyindən xəbər verir. İşğaldan azad edilmiş rayonlarda "yaşıl enerji" zonasının yaradılması məqsədilə, ilkin olaraq, pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verilib. Sosial layihələrini uğurla reallaşdıran Azərbaycan işğaldan azad olunan ərazilərdə silsilə və kompleks tədbirlər həyata keçirir. Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra istifadəyə verilməsi, eləcə də Laçında Güləbird kəndində Su Elektrik Stansiyası istifadəyə verilməsi bu ərazilərdə quruculuq işlərinin aparılmasından müjdədir. Laçın rayonu işğaldan azad olunandan bir neçə ay sonra istismara verilən Su Elektrik Stansiyası azad edilmiş torpaqlarda istismara verilən ilk elektrik stansiyasıdır. Xatırladaq ki, Cənab Prezident İlham Əliyevin müvafiq Fərmanına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə xüsusi dövlət əhəmiyyətli binaların elektrik enerjisi ilə təchizatının təcili təmin olunması çərçivəsində təxirəsalınmaz tədbirlər həyata keçirilir. Cəbrayılda ilk çoxmənzilli yaşayış məhəlləsinin, rayon Mərkəzi Xəstəxanasının, akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməlinin qoyulması, Ağdamda iki kəndin təməlinin qoyulması, Hadrutda Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi yeni silahlı birləşmə olan Komando Briqadasının hərbi hissəsinin açılışı və saydıqca bitməyən layihələr Böyük Qayıdışımıza doğru yönəlib. Xüsusi olaraq vurğulayaq ki, bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi də əsas məsələlər sırasındadır. 44 günlük Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərin minalardan, partlamamış hərbi sursatdan və digər partlayıcı qalıqlardan təmizlənməsi, zərərsizləşdirilməsi bu gün qarşıda duran əsas məsələlərdən biri olduğundan bu sahədə işlər davamlı olaraq həyata keçirilir.

### "AĞALI KƏNDİNİN TİMSALINDA HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI VƏ ÜMUMİYYƏTLƏ, HƏR BİR İNSAN BİZİM PLANLARIMIZI GÖRƏ BİLƏR"

Yola salacağımız il 2022-ci il işğaldan azad olunan torpaqlarımıza ilk köçün başlanması kimi yadda qalacaqdır. Böyük Qayıdışımızın ilk karvanı Ağalıya yola düşdü. "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər", - deyə Cənab Prezident bildirib. Otuz ilə yaxın yurd həsrəti ilə yaşayan bir qism ailə yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşdılar. Köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçildi. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin sakinləri var idi. Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər. Ümumilikdə "ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə köçürülən ailələr hər cür şəraitlə təmin olunub. Ağalı kəndində "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərir ki, kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışı təmin edilir. Ağalı kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri fəaliyyət göstərir. Göründüyü kimi, "Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır. 360 şagird yerlik ikimərtəbəli məktəb binası və birmərtəbəli 60 yerlik uşaq bağçası onların ixtiyarındadır. Ağalı kəndində 200 evdən ibarət gözəl kənd salınıb.

### "HƏR KƏS GÖRƏCƏK Kİ, İŞLƏRİMİZ PLANLI VƏ SİSTEMLİ ŞƏKİLDƏ APARILACAQ"

Böyük Qaydışın ilk karvanına şahidlik etdik. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Zəngilan rayonu birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər öz yurdlarına qayıdıblar. Bildiyimiz kimi, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. Prezident çıxışlarının birində oraya qayıdacaq insanlara rahat şərait yaradılacağını bildirmişdi: "Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq - təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf". Belə də oldu. Xatırladaq ki, Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu.

Bəli, Cənab Prezidentin bildirdiyi kimi, "Müharibə artıq tarixdə qaldı Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik. Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq".

Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı oldu. Yaxın gələcəyimizdə karvanlarımız Ağdama, Kəlbəcərə, Şuşaya və digər ərazilərimizə yol alacaq, Qarşıdan gələcək illərimizdə daha möhtəşəm tarixlər yazacaq və işğaldan azad olunan ərzilərimizin əzəli sakinləri öz yurd torpaqlarında qurub-yaradacaqlar. Daha işıqlı sabahlar bizi gözləyir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Müzəffər xalqın güvənc yeri: GÜCLÜ ORDU!

**İlham Əliyev: "Hərbi xərclərin artırılması və büdcə xərclərində birinci yeri tutması bizim dövlət siyasətimizin təzahürüdür"**

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti sonrakı illərdə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoydu, prioritet elan edilən ordu quruculuğu sayəsində ərsəyə gələn nizami Azərbaycan Ordusu dövlətçiliyimizin qarantı olmaqla yanaşı, ölkəmizin dünya miqyasında maraq və mənafeyinin, milli təhlükəsizliyin lazımi səviyyədə qorunmasını təmin etməyə imkan yaratdı.



Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Ölkəmizdə yaradılan 20-dən çox hərbi zavodda müxtəlif adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur.

## ”BİZİM ORDUMUZ DÜNYADA ƏN GÜCLÜ ORDULAR SIRASINDADIR”

Ölkənin yeni hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilmişdi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu göstərdi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, ”Azərbaycanda güclü ordu vardır. Ordunun potensialı gündən-günə möhkəmlənir, güclənir. Ordu quruculuğu bizim dövlət siyasətimizdir, prioritetdir və son illərdə bu istiqamətdə çox böyük işlər görülmüşdür. Ordumuz yeni texnika ilə təchiz edilir. Bu gün Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Bu göstəriciyə görə bizim ordumuz dünyada ən güclü ordular sırasındadır”.

Azərbaycan Ordusu Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Beləliklə, Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevincini yaşatdı.Hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malik güclü ordumuz var. ”2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik”- deyən Cənab Prezident 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsinin Azərbaycan Ordusu tərəfindən götürüldüyünü və işğalçıların o bölgələrdən qovulduğunu qeyd etmişdir. 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı.

## ”BUNDAN SONRA DA HƏRBİ XƏRCLƏRİ ARTIRACAĞIQ”

Azərbaycanının bayrağını yüksəkliklərə qaldıran siyasi gücə, iradəyə malik Böyük Lideri, Sərkərdəsi və Prezidenti İlham Əliyev xalqımızı Müzəffər xalq kimi dünyaya tanıtdı. Tariximizdə yeni salnamə yaratmaqla dünya hərb tarixinə də yeni bir səhifə açdıq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz 44 gün davam edən müharibənin gedişində möhtəşəm qələbələr qazanaraq döyüş meydanında Ermənistanın ”güclü, məğlubedilməz ordu” mifini darmadağın etdi. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti tarixdə yeni gün oldu. ”Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır”, - deyə Prezident bildirib.

Azərbaycanın iqtisadi gücündən maksimum faydalanaraq ordumuzu Türkiyə, İsrail, Rusiya, Belarus və digər dövlətlərin müasir hərbi texnikaları ilə təchiz edən, onun davamlı modernləşdirilməsi prosesini həyata keçirən Azərbaycan Prezidenti bununla Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ordusu qarşısındakı üstünlüyünü daha da artırdı və peşəkar, ən müasir tələblərə cavab verən orduya çevirdi. Prezident İlham Əliyev bildirmişdir ki, hərbi xərclərin artırılması və büdcə xərclərində birinci yeri tutması bizim dövlət siyasətimizin təzahürüdür. Dövlət başçısının sözlərinə görə, bu, bizim prioritetimizdir və bundan sonra da hərbi xərcləri artıracağıq.

## ALİ BAŞ KOMANDANIN SİYASİ İRADƏSİ VƏ ORDUMUZUN GÜCÜ

Amma, deyəsən, ”dəmir yumruğ”un gücünü görmüş ermənilər hərdən unutqanlıq edirlər. Yaxın keçmişimizdə aldığı zərbələri yaddan çıxarıblar. Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq cari ilin avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdilər. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərdi. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi ”Qisas” cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürüldü.

Xatırladaq ki, Azərbaycan Respublikası dəfələrlə bildirib ki, üçtərəfli Bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcudluğu təhlükə mənbəyi olaraq qalır. Bundan sonra ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks cavab tədbirləri daha da sarsıdıcı olacaq. Ermənilər bu günə qədər Azərbaycan ordusunun gücünə, Ali Baş Komandanın siyasi gücünə, iradəsinə yaxşı bələddirlər.



”2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik”- deyən Cənab Prezident 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsinin Azərbaycan Ordusu tərəfindən götürüldüyünü və işğalçıların o bölgələrdən qovulduğunu qeyd etmişdir: ”Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı”. 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı.

## ”BİZ FAŞİZMİ MƏHV ETDİK, CƏNUBİ QAFQAZI FAŞİZMDƏN XİLAS ETDİK”

Prezident İlham Əliyevin ordu quruculuğu siyasətində mühüm yer tutan məsələlərdən biri də yüksək peşəkarlığa malik hərbi kadrların hazırlanması ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev böyük uzaqgörənlik göstərərək hələ sovet dönəmində - 1971-ci ildə Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail olub. Bununla da yerli hərbi kadrların hazırlanması üçün mühüm zəmin formalaşdırıb. Müstəqillik illərində Heydər Əliyev tərəfindən hərbi məktəb və akademiyaların yaradılması prosesi uğurla davam edib. Ulu Öndərin bu siyasətini müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyev yeni hərbi akademiyaların yaradılması barədə mühüm qərarlar qəbul etdi. Belə ki, Prezident İlham Əliyevin Sərəncamı ilə Dövlət Sərhəd Xidməti Akademiyası yaradılmışdır və bu siyasətin davamıdır.

44 günlük Vətən müharibəsində bütün qoşun növləri kimi, Sərhəd Qoşunlarının şəxsi heyəti də torpaqlarımızın erməni işğalından azad edilməsində yaxından iştirak edərək böyük qəhrəmanlıqlara imza atmış oldu. Bundan başqa, Prezident İlham Əliyevin göstərişi ilə yüzlərlə, minlərlə azərbaycanlı hərbi kadr başda qardaş Türkiyə olmaqla, dünyanın bir çox dövlətlərində əlavə hərbi təhsil və təkmilləşdirmə kurslarına cəlb edilib. Bununla da peşəkarlıqlarını daha da artıran hərbçilərimiz dünya ordularının təcrübəsi ilə praktiki şəkildə tanış oldular. Nəticədə Azərbaycan Silahlı Qüvvələri hərb işini dərindən bilən nəhəng peşəkarlar məktəbinə çevrilib, digər dünya orduları üçün nümunə sayılacaq səviyyəyə yüksəlib.

”Bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər”, deyə bildirən Cənab Prezident qeyd edib ki, biz faşizmi məhv etdik, Cənubi Qafqazı faşizmdən xilas etdik: ”Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır”.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Ailə quran cütlüklər arasında yaş fərqi neçə olmalıdır?





**Psixoloqların fikrincə, uğurlu evliliklərin əsas səbəbi sevginin qarşılıqlı olmasıdır. Əlavə olaraq, təhsil səviyyəsi, dünyagörüşlər uyğun olmalı, evlənənlərin həm ruhi, həm də cismani "əkiz" olmaları vacibdir. Hesab edilir ki, evliliklərdən böyük maneə, insanın daha tez dəyişməyə meyilli olmasıdır. Daha yaxşı bir həyat səviyyəsi olan birini görəndə, həyat yoldaşından daha cəlbedici biri ilə rastlaşanda bu cür problemlər yaranır.**

Qadınından daha yaşlı kişilərdə qısqanclıq hissi daha güclü olur ki, bu da ailəyə zərər verir. Özündən kiçik bir kişi ilə münasibət yaşayan qadınlar gəncliyində cəmiyyətin qınağını düşünən qadınlar olur. Bu qınaq yaşadıqları münasibətdə də davam edir. Qadının fikirləri qarışır və "görəsən, bir gün məndən ayrılarmı", "məni həqiqətən sevirmi", "mənimlə evlənəcəkmi" fikirləri onu rahat buraxmır.



Bir sıra psixoloqlar isə deyir ki, bu cür problemlər, adətən, yaş fərqi çox olan ailələrdə yaranır. Belə ki, qadın ərindən 6-10 yaş kiçikdirsə və yaxud da əksinə, kişi həyat yoldaşından kiçikdirsə, qısqanclıq birinci maneədir.

Qeyd olunur ki, evlilik insanlardan bircə şey tələb edir - elastik olmağı. Çünki sabit fikirlilik evliliklərdə ikinci problemdir. Evləndikdən sonra da olduğu kimi qalmaq bizim cəmiyyətin bir çox kişilərinə xasdır. Yenilikçi olmaq, amma mühafizəkarlığını itirməmək vacibdir. Kişi ilə qadın arasında yaş fərqi nə qədər olmalıdır ki, onlar rahat olsunlar və evlilik xoşbəxt olsun?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Araşdırmalara görə, ən davamlı nikahlar həmyaşıdlar arasındadır. Digər tərəfdən, yaş fərqi ona görə vacibdir ki, onların xüsusiyyətləri, maraqları, həyata baxışları üst-üstə düşsün. Eyni yaşda olan cütlüklərin həyata baxışlarının oxşar olması, eyni vaxtda böyüməsi, cəmiyyətdə eyni dəyişiklikləri görməsi ilə fərqlənir. Belə cütlüklər, adətən, uşaq sahibi olmağa tələsmirlər.

Həyat yoldaşları arasında yaş fərqi təxminən on ilə qədər olması normal hal sayılır.

Psixoloq Vüsalə Əmiraslanova: "Ailə quran cütlüklər arasında yaş fərqi dünya görüşü ilə bağlıdır, yəni bioloji olaraq faktor kimi sayılmır. Aralarında 10/15 yaşdan yuxarı fərq olan cütlüklər arasında problemlər ortaya çıxa bilir. Amma bəzən bir insan özündən 7/8/10 yaşda böyük ilə ailə qurursa və ailə qurduğu yaş 25 üzərindədirsə, elə də ciddi problemlər yaşanmır. Ümumi olaraq evlənənlər arasındakı fərq qoyulma yaşı bəlli deyil. Bu, dünya görüşü ilə bağlı bir məsələdir. Yetkin, müdrük bir insanlar olanda elə də böyük problemlər yaranmır. Ancaq yaxşı olar ki, aradakı yaş 5/6 maksimum 7 yaş olsun. Belə olduğu halda, daha gözəl və davamlı ailələr yaranır. Çünki qadınlar daha çox oğlanlardan yaşca böyük olduqlarına görə, daha çox övladları ilə vaxt keçirirlər və bir az daha tez yaşlanmağa meyilli olurlar kimi görünürlər. Psixoloji olaraq tez-tez depressiyalara düşürlər, ona görə yaşı özündən çox böyüklə ailə quran bəzi psixoloji uyğunsuzluqlar yarana bilir".

ARAŞDIRMA

*Havar Şəfiyeva*

# "Bunlar Ermənistanın sülh prosesini zədələmək məqsədindən irəli gəlir"



"Ermənilərin təxribatları intensiv şəkildə davam edir. Gah Qarabağda Azərbaycanın yeraltı və yerüstü təbii sərvətlərini sorub aparmaqla məşğul olur, gah da sərhədlərdə Azərbaycanın yaşayış məntəqələrini və hərbçilərin dayaq nöqtələrini atəşə tutaraq sülh sazişinin imzalanması üzrə danışıqları pozurlar". Bu fikirləri SİA-ya açıqlamasında siyasi-ekspert Aydın Quliyev səsləndirib.

Onun sözlərinə görə, bir neçə gün öncə Kəlbəcərdə 8 Azərbaycan vətəndaşının minalara düşməsi də bir daha sübut etdi ki, Ermənistanın təcavüzü bitməyib: "Dekabrın 7-də sülh sazişinin imzalanması üzrə planlaşdırılmış görüşün pozulması Ermənistanın açıq-aşkar antisülh siyasəti apardığının bariz nümunəsi oldu. Təəssüf ki, bizim təhlükəsizlik və sülh missiyası yeritmək etibarı ilə Rusiyaya və onun sülhməramlı qüvvələrinə göstərdiyimiz etimad da son vaxtlar ciddi şəkildə zədələnməkdədir. Çünki ermənilərin həm Qarabağda təbii-sərvətləri talan etməsi, həm də sərhədlərə yaxın bölgələrdə dinc sakinlərə zərər yetirməsi sülhməramlıların gözünün qarşısında baş versə də, buna qarşı heç bir tədbir görülmür".

Ekspert sözlərinə davam edərək bildirib ki, neçə gündür ki, Azərbaycanın Qeyri-Hökumət Təşkilatları (QHT) nümayəndələri Laçın yolunda dinc aksiya keçirmələrinə və əsaslı tələblər səsləndirmələrinə baxmayaraq hələ Rusiya sülhməramlılarından məqbul bir cavab gəlməyib: "Hətta ermənilərin nümayiş etdirdiyi ekoloji terrorun qarşısının alınması ilə bağlı rus komandanlığı bizə heç bir ümid vermir. Bütün bunlar vəziyyətin getdikcə gərginləşəcəyini göstərən əlamətlərdir. Azərbaycan tərəfi haqlı mövqedə öz tələblərini ortaya qoysa da, buna nə sülhməramlılar, nə də separatçı rejimi idarə edənlər hələ ki məhəl qoymurlar. Amma Azərbaycan cəmiyyətinin və onun avanqard dəstəsi olan media ilə QHT sektorunun bugün Laçın yolunda mərdcəsinə dayanmaları və tələb irəli sürməmələri Azərbaycanın bu yolda geri dönməyəcəyi və məsələni sona çatdıracağını deməyə əsas verir. Ermənistanın bütün addımları təxribat xarakterlidir. Bütün bu addımlar Ermənistan tərəfinin sülh prosesini zədələmək məqsədindən irəli gəlir".

*Ləman Əlizadə*

# "Putin ermənilərin istəklərini reallaşdıra bilmədi"

"QHT təmsilçilərinin Laçın yolunda təşkil etdikləri aksiya mühüm əhəmiyyətə malikdir. Onların əsas tələbi təbii sərvətlərimizin talanmasına son verilməsi və ekoloqların monitorinqinə şərait yaradılması olsa da, bu aksiya daha geniş spektrli məsələləri əhatə edir və çox şeyə aydınlıq gətirə bilər". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, etirazçıların əsas tələbi, hələlik, yerinə yetirilməsə də müəyyən nəticələr artıq var: "KİV-də Ermənistan Baş nazirinin əmri ilə Qarabağ ərazisində qalan ağır hərbi texnikanın çıxardılmasına başlanıldığı barədə məlumatlar yayılır. Bu addımın Rusiya prezidenti ilə telefon danışıqlarından sonra atılması da çox şeyi aydınlaşdırır. Məlumdur ki, bu gün Ermənistan rəhbərliyi Rusiyanın ətəyindən yapışaraq onun vasitəsi ilə öz məqsədlərinə nail olmaq istəyir. Hətta Soçi danışıqları ərəfəsində Paşinyan Putinə müraciət edərək, Rusiya rəhbərliyinin öz mövqeyində axıra qədər möhkəm dayanmasını xahiş etmişdi. Ancaq həmin danışıqlar onun ümidlərini doğrultmadı və Putin ermənilərin istəklərinin heç birini reallaşdıra bilmədi. N.Paşinyan növbəti zərbəni KTMT-nin İrəvan sammitində aldı və ermənilərin çox ümid etdikləri tədbir nəticəsiz başa çatdı. Ekoloqlarımızın bu etiraz tədbiri Rusiya üçün növbəti, bəlkə də həlledici sınaq olacaq. Rusiya rəhbərliyi ermənilərin ümid etdiyi kimi davranıb Azərbaycanı qarşısına almağa cəsarət edəcəkmi? Monitorinqə imkan verilməməsi, QHT nümayəndələrinə qarşı zorakılıq edilməsi və özlərinin bağladıqları yolu guya güc nümayiş etdirərək açmaq cəhdi Azərbaycan-Rusiya münasibətlərinin tamamilə pozulması olacaq".

A.Səmədov onu da bildirib ki, bundan sonra Rusiya sülhməramlılarının regionda qalması da, Rusiyanın vasitəçilik istəkləri də, "müttəfiqliyimiz" də mümkünsüz olacaq: "Təbii ki, bu Rusiya-Türkiyə münasibətlərinə də öz ağır təsirini göstərəcək. Hər halda ümid edirəm ki, onsuz da ağır vəziyyətdə olan Rusiya rəhbərliyi ağıllı adamlar kimi davranaraq daha düzgün yol seçməyə çalışacaq. Monitorinqə imkan verəcək, Ermənistan silahlılarının ərazimizdən çıxarılması və Qarabağ ermənilərinin silahlı dəstələrinin tərksilah olunması istiqamətində real addımlar atacaq, "Moskvalı provokator" R.Vardanyanı təcili Qarabağdan çıxaracaq və Azərbaycanın tələblərinin nəzərə alındığı sülh sazişi üzərində iş sürətlənəcək. Bir daha təkrar etmək istəyirəm ki, bu düzgün addımlar o halda atılacaq ki, Rusiya rəhbərliyi ağıllı adamlar kimi davranmaq yolu seçəcək. Seçəcəkmi? Bu məqamda bir sualı da özümüzə vermək məcburiyyətindəyik. Rusiya hakimiyyətinin 2022-ci il başlayandan indiyə qədər ağıllı adamlar kimi davrandığını xatırlayan varmı?"

*Gülyana*



# "Azərbaycan-Türkiyə-Türkmənistan formatının yaradılması mühüm hadisədir"

"Azərbaycan xarici siyasətində türkdilli dövlətlərlə əməkdaşlığın inkişafını prioritet istiqamət kimi qəbul edir. Xalqlarımızı birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər ölkələrimizin qarşılıqlı səmərəli fəaliyyətinin əsasını təşkil edir. Bu ilin noyabrında Səmərqənddə keçirilmiş Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündəki çıxışında "Türk dünyası böyük bir ailədir" söyləyən dövlət başçısı İlham Əliyev bu çağırışı etdi ki, bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq.

Ümumilikdə İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi Zəfərinin yaratdığı reallıqlar fonunda türk dünyasının birliyi istiqamətində atılan addımlar, türkdilli dövlətlər arasında ikitərəfli və çoxtərəfli çərçivədə əlaqələrin genişlənməsi diqqətdən kənarda qalmır. Bunu cari ildə dövlət başçısı İlham Əliyevin türkdilli dövlətlərə, həmçinin həmin ölkələrin rəhbərlərinin Azərbaycana səfərlərinin say tərkibi, imzalanan sənədlərin əhatə dairəsinin genişləndirilməsi də təsdiqləyir. Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da bu birlik amallarına sadiq qalacaq. Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına, müasir hərbi imkanlara malikdir." Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, dövlət başçısı İlham Əliyevin Türkmənistana işgüzar səfəri, səfər çərçivəsində Azərbaycan Prezidentinin Türkiyə və Türkmənistan prezidentləri ilə təkbətək, eyni zamanda, Azərbaycan, Türkiyə, Türkmənistan dövlət başçılarının geniş və məhdud tərkibdə görüşləri əlaqələrin gələcək inkişafına xidmət edən bir sıra məsələlər ətrafında fikir mübadiləsi apararaq vahid mövqe ortaya qoyulmasına imkanlar yaratdı: "Azərbaycan, Türkiyə və Türkmənistan Dövlət Başçılarının Üçtərəfli Zirvə Görüşünün keçirilməsi, əlaqələrin müxtəlif sahələr üzrə inkişafına yönələn 6 sənədin imzalanması ümumilikdə türk dünyası üçün mühüm hadisə kimi dəyərləndirilir. Bu səfər Prezident İlham Əliyevin 2022-ci il ərzində Türkmənistana ikinci səfəridir. Bu mühüm məqamları da xüsusi qeyd etməliyik ki, 2017-ci ildə Azərbaycan ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb. Ötən ilin yanvarında isə Xəzərdə əməkdaşlıq və qarşılıqlı etimad mühitinin gücləndirilməsinə böyük töhfə kimi dəyərləndirilən Azərbaycan Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması da qlobal səviyyədə çox mühüm əhəmiyyət kəsb edir. Memoranduma Azərbaycanın 2020-ci ildə tarixi Zəfərinin yaratdığı yeni reallıqlar kontekstindən yanaşan beynəlxalq ekspertlər bildirirlər ki, sənədin reallaşdırılması həm iki ölkə arasındakı münasibətlərə, həm regional, həm də qlobal əməkdaşlığa veriləcək töhfələrin aydın mənzərəsini yaradır."



"Azərbaycanın qardaş Türkiyə və Türkmənistanla ikitərəfli əlaqələri yüksək səviyyədədir. Bu baxımdan üçtərəfli formatda əməkdaşlığın yaradılması həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin daha da möhkəmləndirilməsində öz sözünü deyəcək" söyləyən YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, türkdilli dövlətlər beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ATƏT və digər təsisatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərir və əməkdaşlıq edir. Dövlət başçısı İlham Əliyevin çıxışında vurğuladığı kimi, tarixi bağlar üzərində qurulmuş münasibətlərimiz ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar yaradır. Azərbaycan, Türkiyə və Türkmənistan nəqliyyat-logistika sahəsində böyük uğurlara imza atıblar.

Vüqar Rəhimzadə onu da əlavə edib ki, Prezident İlham Əliyev daim türk dünyasının birliyinə çalışaraq Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının, müttəfiqliyinin fonunda digər ölkələrlə də belə sıx birliyin yaradılmasına çağırışlar edib və bu gün də etməkdədir: "44 günlük İkinci Qarabağ müharibəsində dünyaya nümunə olan bu birlik, həmrəylik bir çox məqamları özündə ehtiva edərək türkdilli dövlətlərin postmünaqişə dövründə birliyi məsələsini daha da aktuallaşdırdı. Vətən müharibəsinin başlandığı ilk gündən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil" bəyanatı dünyaya səs saldı, bu dostluğun, qardaşlığın sarsılmazlığının təqdimatı oldu. Ötən il 15 İyun-Milli Qurtuluş Günündə Qarabağın tacı Şuşa Azərbaycan və Türkiyənin dostluğunu, qardaşlığını, müttəfiqliyini rəsmi şəkildə təsdiqləyən sənədə şahidlik etdi. Şuşa Bəyannaməsi iki qardaş ölkənin əlaqələrinin gələcək inkişafının yol xəritəsi kimi dəyərləndirildi. Ümumilikdə dövlət başçısı İlham Əliyevin ötən il Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi məhz möhtərəm Prezidentimizin türk dünyasının birliyinə verdiyi töhfələrin aydın ifadəsidir."

YAP Xətai rayon təşkilatının sədri pandemiya dövründə də Azərbaycanın irəli sürdüyü təşəbbüslər sırasında türk dünyasının birliyinə xidmət edən addımları xüsusi diqqətə çatdırıb. Bildirib ki, Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünün keçirilməsi bunun bariz nümunəsidir: "Ölkəmiz hər zaman birlik, həmrəylik təşəbbüsləri ilə çıxış edir, dünyaya dostluq, əməkdaşlıq mesajlarını ünvanlayır. Azərbaycan yerləşdiyi coğrafi məkana görə dövlətlər, xalqlar arasında əməkdaşlıq körpüsü rolunu oynayır. Heç də təsadüfi deyil ki, Azərbaycanın bu mövqeyi beynəlxalq səviyyədə təqdir edilir."

"Hər bir Zirvə Görüşü münasibətlərin dünəninə baxış fonunda qarşıdakı dövr üçün hədəflərin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Artıq göründüyü kimi, türk dövlətlərinin ortaq keçmişdən ortaq gələcəyə doğru birgə addımlamaları reallıqdır. Bu reallığın formalaşdırılması üçün əməli addımlar atılır, təqdirəlayiq nəticələr əldə olunur, qazanılmış hər bir nailiyyət növbəti uğurlarla möhkəmləndirilərək daha da inkişaf etdirilir. Postmünaqişə dövrünün yeni reallıqları, xüsusilə Zəngəzur dəhlizinin açılması türk dövlətləri arasındakı bağlılığı daha da möhkəmləndirəcək. Prezident İlham Əliyev Azərbaycan, Türkiyə və Türkmənistan Dövlət Başçılarının Üçtərəfli Zirvə Görüşündəki çıxışında da diqqəti Zəngəzur dəhlizinin açılması məsələsinə yönəldərək bildirdi ki, hazırda dəhlizin açılması ilə fəal məşğuluq. Zəngəzur dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsində aparılan işlərin dəmir yolu xətti üzrə 40 faizi, avtomobil yolu üzrə 70 faizi icra olunub. Bütün işlər 2024-cü ildə tamamlanacaq və nəticədə yeni nəqliyyat dəhlizi yaranacaq",- deyə Vüqar Rəhimzadə bildirib.

YAP Xətai rayon təşkilatının sədri belə bir ümumiləşdirməni aparıb ki, türk dünyası üçün möhtəşəm bir gələcək başlanır: "Ölkələr arasında əlaqələrin ikitərəfli, yaxud üçtərəfli formatda yüksələn xətlə inkişafı Türk Dövlətləri Təşkilatı çərçivəsində də əməkdaşlığın dərinləşməsini şərtləndirir. Ümumi nəticə budur ki, türk dövlətləri bundan sonra da bütün məsələlərdə bir-birlərini dəstəkləyəcək, əməkdaşlıq edəcək, imzalanacaq yeni-yeni sənədlər münasibətlərimizin gələcək inkişafı üçün möhkəm hüquqi baza olacaq. Azərbaycan-Türkiyə-Türkmənistan üçtərəfli formatında görüşün önəmini vurğulayan dövlət başçısı İlham Əliyev bu inamı ifadə edir ki, belə görüşlər bundan sonra müntəzəm keçiriləcək və qardaş ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etməsinə böyük töhfə verəcək. Zirvə Görüşünün ölkələrimiz, bölgəmiz və bütün türk dünyası üçün xeyirli olmasını arzulayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu inamı ifadə etdi ki, qardaşlıq bağlarımızla güclənən əlaqələrimiz sahib olduğumuz strateji üstünlüklər əsasında daha da genişlənəcək. Hədəfimiz qlobal və regional dinamika ilə birlikdə inkişaf edən yeni imkanları insanlarımızın rifahı və bölgəmizin sabitliyi naminə dəyərləndirməkdir. Qardaşlar olaraq əl-ələ verib həmrəylik içərisində hərəkət etdiyimiz bütün məsələlərdə mütləq uğur qazanacağıq. Qarabağın 30 ilə yaxın işğalına son qoyan Vətən müharibəsi bunun ən son nümunəsidir."

# "Kəlbəcərdə faciə törədən mina Laçın dəhlizi ilə gətirilib"

"Laçın dəhlizi işğal dövründə Ermənistanın 1 milyondan çox minanı Azərbaycan ərazilərinə gətirdiyi yol olub, Kəlbəcərdə partlayan, faciə törədən mina da vaxtilə bu yolla daşınıb. Aksiya iştirakçıları Ermənistanın müharibə cinayətləri üçün istifadə etdiyi hərbi texnika və sursatların Azərbaycan ərazilərinə daşınmasına icazə verməyəcək, yoldan çəkilməyəcək. Nə qədər ki, Ermənistan törətdiyi cinayət əməllərinə görə cəzalandırılmayıb, mina qurbanlarının da sayı artır". Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib.



Onun sözlərinə görə, Kəlbəcərdə daha 8 nəfərin mina qurbanı olması bunu bir daha təsdiqləyir: "30 ilə yaxın davam edən işğal müddətində Azərbaycan ərazilərində basdırılan minaların xəritələri haqqında dəqiq məlumat verməyən Etmənistan postmünaqişə dövründə də təxribatları davam etdirir. Gümrüdə istehsal edilən minalar azad olunmuş ərazilərə basdırılır. Faktiki müharibə bitsə də, mina terroru can almaqda davam edir. Təbii ki, Ermənistan bunu məqsədli şəkildə edir. Daha çox azərbaycanlının həlak olmasını, keçmiş məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmasını yubatmaq istəyirlər. Burada Ermənistanla yanaşı beynəlxalq təşkilatlar da məsuliyyət daşıyır. Çünki Ermənistana hər hansı təzyiq və ya çağırış edilmir. Qeyri-dəqiq mina xəritələri ilə beynəlxalq ictimaiyyəti aldatmasına rəğmən bu terrorçu dövlətin davranışlarına göz yumulur".

Deputat sözlərinə davam edərək bildirib ki, bu gün azad olunmuş ərazilərə qayıdış, bərpa-quruculuq üçün ən böyük maneə məhz Ermənistanın basdırdığı minalardır: "Azərbaycan haqlı olaraq Ermənistanın hərbi-siyasi rəhbərliyinin məsuliyyətə cəlb olunmasını tələb edir. Beynəlxalq ictimaiyyət bu məsələdə qətiyyətli mövqe nümayiş etdirməlidir".

Hazırda ekofəalların aksiya keçirildiyi Laçın yolundan da Ermənistan Azərbaycan ərazilərini minalamaq üçün fəal istifadə edirdi. Postmüharibə dövründə aşkar olunan minaların istehsal tarixlərinin 2021, 2022-ci illərə aid olması da göstərir ki, bu yoldan məhz minalar və digər hərbi sursatlar, yüklər daşınıb. Aksiya iştirakçıları tələb edir ki, Azərbaycanın suveren torpaqlarında Azərbaycanın bütün dövlət qurumlarının, o cümlədən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Dövlət Gömrük Komitəsinin, ayrıca nəzarət-buraxılış məntəqələri olmalıdır. Rusiya sülhməramlıları Azərbaycan ictimaiyyətinin etimadını doğrultmadı. Ona görə də biz öz təhlükəsizliyimizi özümüz təmin etməliyik".

***Ləman Əlizadə***

# "Aksiya iştirakçıları tezliklə istədiyinə nail olacaq"

"Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində ermənilərin qanunsuz fəaliyyətləri ilə bağlı monitorinq keçirmək üçün ekofəalların və QHT nümayəndələrinin Şuşa-Xankəndi yolunda etiraz aksiyası davam edir". Bunu "Səs" qəzetinə açıqlamasında Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Anar Xəlilov deyib.



Onun sözlərinə görə, artıq 4 gündür Azərbaycanda olan fəallar aksiya keçirirlər: "Azərbaycanı yolu bağlamaqda ittiham edirlər. Bizə bu ərazidə sülhməramlılar mane olur. Aksiyaçılar tələb edirlər ki, təbii sərvətlərin qanunsuz istismarı və daşınmasına son qoyulsun. Rusiya sülhməramlılarının postlarında Azərbaycanın aidiyyəti qurumlarının əməkdaşları da olsunlar və onlarla birgə xidmət aparsınlar. Azərbaycan ictimaiyyəti Laçın yolunda etiraz aksiyaları keçirməklə suveren ərazilərimizdə fəaliyyət göstərən separatçı cinayətkarlara qarşı sərt və barışmaz mövqe nümayiş etdirir. Bu etirazlar həm beynəlxalq dairələrə, həm də Qarabağdakı pozucu, talançı qüvvələrə ciddi mesajdır. Azərbaycan ərazilərində ekoloji terror törədilməsi, təbii ehtiyatlarımızın ermənilər tərəfindən talan edilməsi dərhal dayandırılmalıdır. Ermənistan 30 illik işğal dövründə Azərbaycanın təbii sərvətlərini qanunsuz olaraq istismar edib. Bu talançılıq hazırda da davam edir. Rusiyalı sülhməramlıların bu əməllərə göz yumması təəssüf doğurur. Bu durum Azərbaycan xalqı tərəfindən haqlı olaraq hiddətlə qarşılanır və böyük etirazlara səbəb olur. Son 4 gündə Laçın dəhlizinin Şuşa ərazisindən keçən hissəsində baş tutan dinc etiraz aksiyası bunun əyani sübutudur. Azərbaycan ictimaiyyətinin nümayəndələri bu etirazla bir daha dünyanın diqqətini Qarabağa yönəldir, ölkəmizə haqq-ədalət tələb edir".

A.Xəlilov onu da bildirdi ki, aksiya iştirakçıları tezliklə istədiyinə nail olacaq: "Azərbaycan dövləti hələlik məsələ ilə bağlı böyük səbir və təmkin nümayiş etdirir. Əgər vəziyyət bu cür davam edərsə, dövlətimiz daha sərt və qətiyyətli tədbirlər görmək məcburiyyətində qalacaq. Biz haqq, ədalət, ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə hörmət edilməsini tələb edirik. Əminliklə demək olar ki, Azərbaycan bu dəfə də haqlı istəyinə nail olacaq".

***Gülyana***

ARAŞDIRMA + TƏHLİL

# Müəllim-şagird münasibətlərinin müasir forması hara aparır?




**Müəllim-şagird münasibətləri bütün dövrlərdə aktual mövzu olub. Bu münasibətlər fonunda belə bir fikir formalaşıb ki, müəllim ikinci valideyndir. Yəni, günün yarısını məktəblərdə olan uşaqlara təbii ki, müəllim münasibəti, yanaşması, yaxşı mənada, onun təhsili ilə yanaşı, tərbiyəsində də mühüm əhəmiyyət kəsb edir.**

Orta yaş qrupunda olan insanların hər biri yaxşı xatırlayar ki, o dövrlərdə məktəblərdə çox gözəl müəllim-şagird münasibətləri var idi. Valideynlərin bizə evdə təbliğatı isə məktəbdə müəllimlərə hörmət etməyimizlə, sayğı ilə yanaşmağımızla bağlı olardı. Bu səbəbdən də biz, sözün həqiqi mənasında, müəllimləri ikinci valideynimiz bilir və onların hər bir təlim-tərbiyəsinə əməl edirdik. Lakin müasir dövrdə müəllim-şagird münasibətləri, çox halda, o dövrdəkilərə əsla bənzəmir. Tez-tez eşitdiyimiz xoşagəlməz münasibətlər fonunda düşünürük ki, bunun sonu necə olacaq? Bu barədə bir qədər ətraflı danışaq.

## Xatırlayıram ki...

Bəli, o dövrdə müəllimlər ikinci valideynimiz idi. Qadın müəllimlər qızların anası, kişi müəllimlər oğlanların atası kimi bizə yanaşır, hər səhvimizi, qüsurumuzu o qədər incəliklə aradan qaldırırdılar ki, ruhumuz belə incimirdi. Yadımdadır, bir dəfə sinfimizdə qızlardan biri tənəffüs zamanı çantaları axtarıb pul götürmüşdü. Qızlardan biri bunu görmüşdü, lakin uşaqlara yox, birbaşa sinif rəhbərimizə demişdi. Təsadüfən də həmin saat sinif rəhbərinin dərsi idi. Dərs normal, sakit şəkildə keçdi. Zəng çalınanda müəllim qızlara qalmalarını, oğlanlara getmələrini dedi. Oğlanlar getdilər. Müəllim bizimlə söhbətə başladı. Bəlkə də o vaxt anlamazdıq. Lakin bu gündən həmin söhbətə qayıdanda müəllimin bizləri necə incəliklə başa salması, söhbəti necə bacarıqla açması, necə həssaslıqla aparması qarşısında baş əyməli oluram. Bir sözlə, söhbət o qədər mənalı, təsiredici oldu ki, növbəti tənəffüsdən sonra pullarımızı çantalarımda gördük. Sinif yoldaşımız hər kəsin pulunu götürdüyü kimi də yerinə qoymuşdu.

Tək sinif rəhbərimiz yox, bütün fənn müəllimlərimiz dərsdə baş verən hansısa bir kiçik hadisə üşün tənəffüs zamanı bizi saxlayır, söhbət edir, araşdırma aparırdı.

Əmək təlimi fənnini tədris edən müəllimimizin dilində hərf səsləndirmə problemi var idi. Bir dəfə oğlanlardan biri dərs başlayandan bir neçə dəqiqə gəldi. Qapını döyüb içəri keçdi və müəllim ondan nə üçün yubandığını soruşdu və hirsləndi. O da qapını açıb çıxıb gedəndə müəllimin həmin qüsurunu göstərən tərzdə danışdı. Düzü, bu hamımıza çox pis təsir etdi. Müəllim isə heç bir kəlmə də danışmadı. Özünü elə apardı ki, sanki eşitməyib. Biz də sevindik ki, nə yaxşı müəllim eşitməyib.

Sən demə, müəllim eşidibmiş, həm də çox gözəl eşidibmiş. Növbəti dərsdə bunun şahidi olduq. Həmin oğlanı müəllim elə bir tərzdə başa saldı ki, bütün sinif uşaqları xəcalət çəkdik. Və bu, son hal oldu. Tənəffüs zamanı isə hamımız bir nəfər kimi həmin oğlanın üstünə getdik, hərəkətinə görə onu yaxşıca tənbeh etdik. O da qıpqırmızı olmuşdu. Hiss olunurdu ki, səhvini anlayıb.

Ədəbiyyat müəllimimiz vardı. Bizə həm ədəbiyyatdan, həm də həyatdan dərs verirdi. Davranışımızın ən kiçik detallarınadək geniş şəkildə danışır, hər birimizin əsl insan olması üçün əlindən gələni edirdi. Sinfimizdə bir oğlan vardı, yaxşı oxumurdu. Bir dəfə onu elə gözəl şəkildə tənbeh etdi ki, uşaqlığımızla müəllimimizə, afərin, dedik.

Həmin oğlanın atası fəhlə idi. İşi də çətindi. Müəllim onu dərsi danışmağa qaldırdı. O da susub dayandı, bilmirdi çünki. Müəllim, "niyə dərsini oxumamısan, işinin adı nədir?" deyərək təsirli bir söhbətə başladı. Oxumağının, təhsilinin atasına gələcəkdə böyük kömək olacağını, onun fəxri ola bilməsini elə həssaslıqla izah etdi ki, oğlan utandığından başını aşağı saldı. Ta bundan sonra onun bir dəfə də olsun dərsə hazırlıqsız gəldiyini görmədik.

Artıq yuxarı siniflərdə oxuyurduq. Sinfimizdə bir qız çox kilolu idi. Həmişə də əyninə gen-geniş ətək, köynək geyinirdi. Bir dəfə yenə sinif rəhbərimizlə söhbət edirdik. Müəllim o qıza məsləhət gördü ki, həmişə əyninə görə paltar geyinsin, bu gen paltarlar onu daha da kilolu göstərir.

İndi həmin günlərə qayıdıb bütün olanları, hansı ki, söylədiklərim olanların çox az bir hissəsidir, yada salanda həqiqətən özümüzü müəllimlərimizə borclu hesab etməyə bilmirik. Onlar bizə tək elmin sirlərini deyil, həyatın sirlərini, insanlığı, insanpərvərliyi, vətənpərvərliyi, böyüyə-kiçiyə hörmət hissini, harada özümüzü necə aparmağın lazım olduğunu aşılayıblar. Bu səbəbdəndir ki, onları hər zaman böyük hörmət və sayğı ilə anırıq, harada görsək elə bil valideynimizi görürmüş kimi ülvi hisslər keçiririk.

## Müəllim-şagird münasibətləri müasir dövrdə

İndi o dövrün müəllimlərindən, onların hər bir uşağa münasibətindən söhbət düşəndə, əşi, o dövr ayrı dövr idi, deyirlər. Maraqlıdır, görəsən dəyişən nədir ki? Yenə də məktəb varsa, müəllim, şagird, valideyn varsa, təlim-tərbiyə varsa, bəs dəyişən nədir? Müəllimlər şagirdləri öz övladları kimi görmür, yoxsa şagirdlər müəllimlərin onların ikinci valideyni olmasını istəmirlər? Yoxsa valideynlər öz missiyalarını məktəb saatlarında müəllimlərə etibar etmirlər? Hansıdır, görəsən?

Həm şagird, həm müəllim, həm valideynlərlə apardığımız söhbət əsnasında məlum olur ki, hər üç subyekt bu münasibətlərin "müasirləşməsində" böyük rol oynayır. Düzdür, indi danışacaqlarımız bütün valideynlərə, şagirdlərə, müəllimlərə aid deyil. Lakin çox təəssüf ki, onlar arasında belələri var. İndi bəzi müəllimlər uşaqlardan, uşaqlar və valideynlər isə müəllimlərdən güleylidirlər. Nə üçün? Bunun üçün kiçik bir araşdırma apardıq. Məsələn, müəllim deyir ki, indiki dövrdə uşağa, o yana çəkil, demək olmur. Valideyn məktəbə gəlir, səninlə sanki üsyana başlayır.

Valideyn deyir ki, müəllim mənim uşağıma dərs deyə bilər, ona hirslənə, tənbeh edə bilməz. Bax elə problem də buradan başlanır. Deməli, günün yarıdan çoxunu məktəbdə olan şagird hər hansı bir səhv hərəkət edirsə, səhv söz danışırsa, müəllim onun bu hərəkətinə göz yummalı, danışdığı sözü qulaqardına vurmalıdır. Onda, əziz valideyn sən bu uşağın gələcəyindən heç nə gözləmə. Məsələ aydındır, düşünürəm ki, əlavə izaha ehtiyac yoxdur.

Lakin onu vurğulamaq istəyirəm ki, bu cür düşünmək heç də düz deyil. Çünki istər, ev, istər məktəb olsun, səhv hərəkətin qarşısı dərhal alınmayanda bu, növbəti səhvə yol açır.

*Ardı Səh. 12*



# Müəllim-şagird

## münasibətlərinin müasir forması hara aparır?

Əvvəli Səh. 11

Belə isə nə üçün müəllim uşağı tənbeh edə bilməz? Axı bu tərbiyə prosesində həm də valideynə köməklikdir. Bir də axı valideyn övladını olduğu kimi tanıya bilmir. Lakin müəllim onun uşaqlar arasındakı hərəkətlərini daha yaxşı görür və əgər qarşısı alınmazsa, bu, onun xarakterinə elə bir formada çökür ki, sonra onu tərbiyə etmək çətinləşir.

Hər bir uşaq arxayın olanda ki, müəllim onun hansısa bir səhv hərəkətinə göz yumacaq, görün bunun sonu nə ilə nəticələnə bilər. Belə çıxır ki, uşağın etdiyi səhvlər cavabsız qalır. Valideyn deyir ki, uşağımın səhvlərini deyin, mən özüm tənbeh edim. Bəli, bu da doğru fikirdir. Lakin ikitərəfli tənbeh daha təsirli deyilmi? Biri var dərhal müdaxilə, biri də var bir neçə saatdan sonra müdaxilə. Bir də ki, biz uşağımızı müəllimələrə saatlarla etibar ediriksə, nə üçün onun tərbiyəsinə nəzarəti də onun öhdəsinə verməyək?



### Tədris və təlim-tərbiyə yanaşı olanda...

Cəmiyyətə o zaman yaxşı yetişdirilmiş gənc vermək olar ki, məktəblərdə tədrislə təlim-tərbiyə birgə həyata keçirilsin. Uzun illər bu, belə də olub. Yəni, məntiqlə də fikirləşəndə istər təhsil aldığımız, istər çalışdığımız müəssisələrdə təlim-tərbiyə qaydalarına riayət etmək hər kəsin borcudur. Məktəbdə isə bu, vacibdir. Baxmayaraq ki, indi uşaq bir səhv hərəkət edəndə və müəllim onu tənbeh edəndə bəzi valideynlər var ki, səsləri sosial şəbəkələrdən gəlir, lakin belə deyil. Hər kəs borcludur ki, məktəbin qaydaqanunlarına tabe olsun. Biz nə qədər ki, övladlarımızın başına tumar çəkirik, nə qədər boş yerə onları müdafiə ediriksə, inanın, bunun yaxşı nəticəsi olmayacaq.

Nə üçün öz məktəb illərimizin təcrübəsindən istifadə etmirik? Axı hər birimiz o dövrdə təhsil almışıq, müəllim-şagird münasibətlərinin nəticələrindən bəhrələnmişik. Belə olan təqdirdə nə üçün bu metodun əleyhinə çıxırıq? Bizi bəli, bu sosial şəbəkələr, internet aləmi bu günlərə gətirib çıxarıb. Orada gördüklərimiz, oxuduqlarımız bizdə bu fikirləri formalaşdırıb. Lakin orada gördüklərimiz bizi milli dəyərlərimizdən qoparmaq üçün şüurlarımıza yeridilənlərdir. Biz nə edirik? Onlari rədd edib, öz yolumuzla getmək əvəzinə, cəmiyyətimizə, həyat tərzimizə uyğun olmayanların ardınca gedir, onları həyatımıza daxil edirik. Lakin bu, heç yaxşı hal deyil və bu barədə əməlli-başlı düşünmək gərəkdir.

Müəllim-şagird münasibətlərinin bir tərəfindən-yəni valideynlərlə bağlı tərəfindən danışdıq. İndi isə bir qədər də müəllimlərə aid tərəfindən danışaq. Bəli, bu gün məktəblərimizdə müəllimlər var ki, valideynlər onlar haqqında güleylənməkdə haqlıdırlar. Bu cür müəllimlərdir müəllim-şagirg-valideyn üçbucağına xələl gətirənlər.



Ümumiyyətlə, düşünürəm ki, müəllim hər zaman özünü bu ada layiq aparmalı, ona hörmətlə yanaşmalı, heç bir təqdirdə bu ada xələl gətirməməlidir. Yəni səhv etmiş bir uşağa elə bir tərzdə yanaşılmalıdır ki, onun şəxsiyyətinə xələl gəlməsin, uşaqların içərisində pis vəziyyətə düşməsin. Belə olanda təbii ki, uşaq da müəllimə cavab qaytarır. Və müəllim düşünür ki, mən nə desəm olar, lakin uşaq mənə cavab verməməlidir. Lakin bax burada səhvik. Çünki xarakterlər, xasiyyətlər bir-birinə bənzəmir. Müəllim hər xarakterdə uşaqla qarşılaşa bilir və onların hamısı ilə eyni rəftar edə bilmir.



Adının çəkilməsini istəməyən bir valideyn deyir ki, bu günlərdə övladının təhsil aldığı orta məktəbin sanitar qovşağında yuxarı sinif şagirdləri siqaret çəkibmişlər. Onun övladı da həmin vaxt oraya getdiyi üçün ondan həmin uşaqların kim olduğunu öyrənməyə çalışıblar. Lakin uşaq onların kim olduğu haqda məlumat vermək istəməyib. Belə olanda müəllim uşağı sinifdən çıxarıb. Bu faktla bağlı düşünürəm ki, burada bəli, günah müəllimdədir. Birincisi, heç bir məsələ ilə əlaqədar şagirdi dərs prosesindən ayırmaq olmaz. İkincisi, gördüyü nə isə haqda danışmaq istəməyən şagirdi zorla danışmağa vadar etmək olmaz. Yaxşı olar ki, növbətçi müəllimlər məktəbə nəzarəti gücləndirsinlər və nə baş verdiyini özləri aşkar etsinlər. Yuxarı sinif şagirdləri ilə aşağı sinif şagirdini qarşı-qarşıya qoymaq heç də düzgün hal deyil.

Müasir dövrümüzdə müəllimlər var ki, şagirdi adi səhvi üçün bütün uşaqların içərisində təhqir edir. Belə olanda isə təbii ki, valideyn də işə qarışır və müəllimdən uşağına qarşı doğru hərəkət etməsini tələb edir. Beləliklə münasibətlər korlanır, tədrislə təlim-tərbiyənin birgə həyata keçirilməsinə maneçilik yaradır.

### Bəs bu münasibətlərin qorunması üçün nə etməli?

Yaxşı olar ki, yuxarıda da deyq etdiyim kimi, müəllim müəllim adına böyük ehtiramla yanaşsın. Valideyn də boş yerə övladını müdafiə etməsin. Uşaq məktəbdə-dərs prosesində hansısa bir səhvə yol verirsə, onu müəllim-valideyn eyni dərəcədə qınayarsa, bəli, bunun gözəl nəticəsi ola bilər. Yox, əgər, müəllim bunun valideyni gəlib şikayət edər, məni işdən çıxararlar deyirsə, yəni valideynlər buna şərait yaradırlarsa, onda özlərindən küssünlər. Övladlarının da xoşbəözt gələcəyi haqda fikirləşməsinlər.

Məktəb tək tədrisi yerinə yetirərsə, övladlarımız kor olar. O mənada ki, əxlaqı yerində olmayan təhsilli insan kimin nəyinə gərəkdir. Bizim cəmiyyətimizə verə biləcəyimiz ən layiqli övlad təhsili ilə yanaşı, tərbiyəsi və əxlaqı gözəl olan gənclərdir. Buna isə yalnız məktəblərdə nail ola bilərik.

Bəzi müəllimlərin də məktəblərdə necə deyərlər, hegamonluq etməsi, bəzi valideynlərin də məktəblərə hücum çəkməsi, övladının səhvinə görə məktəb kollektivini günahlandırması haqqında onlarla faktımız var. Bütün bu faktlara nəzər salanda, analiz edəndə isə belə qənaətə gəlmək olar ki, çox gözəl ənənələr üzərində qurulan təhsil ocaqlarımızı bir neçə müəllim və valideynin səhv addımları, danışıqları, hərəkətləri ilə günahlandırmaq olmaz. Biz çalışmalıyıq ki, ictimai qınaqla həmin müəllimlərə də, valideynlərə də səhv etdiklərini anladaq. Bunu bacararıqsa, gələcəyimiz olan uşaqlarımızı xilas etmiş olarıq. Bunu bacararıqsa, yuxarıda da haqqında danışdığım gözəl müəllim-şagird münasibətlərini davam etdirə bilərik.

Valideynlər oturub yaxşı-yaxşı fikirləşməlidirlər. Sosial şəbəkələrdə onlara diqtə olunanlara ağıllarını verməməlidirlər. Bizim xalqın milli dəyərləri var, bunu sosial şəbəkələrdə gördükləri ilə qarışdırmasınlar. Olar ki, hansısa bir xarici ölkədə uşağı özbaşına buraxarlar. Deyərlər ki, məktəbdə istənilən hərəkətinə görə ona heç kim bir kəlmə söz deyə bilməz. Lakin inanın ki, belə bir ölkə ola bilməz. Bütün bu barədə gördükləriniz uydurma, hansısa bir xalqın mentalitetini darmadağın etmək üçün uydurulan, beyinlərə axıdılan vasitələrdir.

Övladımız hansı məktəbdə təhsil alırsa, ora onun ikinci evi, müəllimlər isə ikinci valideynləridir. Biz bunu nə qədər ki, bu cür qəbul edirik, cəmiyyətə də layiqli vətəndaşlar verə biləcəyik. Nə qədər ki, müəllim öz peşəsinə, müəllim adına hörmətlə yanaşırsa, məktəblərdə tədrislə yanaşı, təlim-tərbiyə də yüksək səviyyədə olacaqdır. Biz bunlara nail olmağa, olanlarımızı qorumağa çalışmalıyıq. Əks təqdirdə isə dediklərimizin bir neçə ildən sonra nə qədər doğru olduğunu hər kəs görəcəkdir.

***Mətanət Məmmədova***

# Dostlara güc, düşmənlərə qorxu!

## Azərbaycan-Türkiyə birliyinin növbəti nümayişi

**Azərbaycanın inkişafını gözü götürməyənlərə, üzdə və daldada riyakarcasına əleyhimizə məkrli planlar quranlara göstərilir "Qardaş yumruğu". Düşmənlərə göz dağı vermək, "ağıllı ol, yoxsa başın əzilər" xəbərdarlığı etmək üçün ay-ulduzlu türk F-16-ları kimi havaya qalxan "Qardaş yumruğu" iki qardaşın - Azərbaycan və Türkiyənin sarsılmaz birliyinin, yenilməz gücünün nümayişidir. "Qardaş yumruğu" "dəmir yumruğ"un dəydiyi yerdə ot bitməyəcək, zərbindən qarşısında Arazın panton körpülərlə ikiyə bölünəcəyi, əsrlərin həsrətinə son qoyulacağı, ermənin qaçıb gizlənməyə siçan deşiyi axtaracağı qədər daha möhkəm, qüdrətli formada təqdimatıdır. Hər kəs izləsin əl-ələ vermiş iki qardaşın bu yumruğunu və hər kəs öz hesabını götürsün. Dostlar təbii ki, sevinəcək, düşmənlərin isə qoy zəhri yarılsın...**

Qeyd edək ki, dekabrın 5-dən Azərbaycanda ordumuzun və Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə "Qardaş yumruğu" adlı genişmiqyaslı hərbi təlimlər keçirilir. Budəfəki təlimlərin ən diqqətçəkən məqamlarından biri Bakı şə-



edən müdafiə sənayesinin müasir texnologiyalar əsasında istehsal etdiyi ən yeni silahların və digər hərbi vasitələrin ordumuzun silahlanmasına daxil edilməsi perspektivləri daim diqqətdə saxlanılır. Əməkdaşlığın ən diqqətçəkən istiqamətlərindən biri isə Bəyannamədə nəzərdə tutulduğu kimi, birgə təlimlərin keçirilməsidir.

Azərbaycan və Türkiyə hərbçilərinin birgə və çoxtərəfli təlimləri mütəmadi olaraq keçirilir. "Turaz qartalı", "Sonsuz qardaşlıq", "Anadolu qartalı", "Efes", "Qafqaz qartalı" və digər çoxsaylı təlimlərin keçirilməsində əsas məqsəd dost və qardaş ölkələrin silahlı qüvvələri arasında hərbçilərin birgə fəaliyyət qabiliyyətinin imkanlarının və peşəkarlıqlarının artırılmasıdır. Bundan başqa, qoşunların qarşılıqlı əlaqədə fəaliyyətləri zamanı döyüş uzlaşmasının təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi də xüsusi diqqət yetirilən məqamlardandır.

"Qardaş yumruğu" təlimləri həm də ciddi siyasi əhəmiyyət daşıyır. Azərbaycana açıq düşmənçilik mövqeyi tutaraq işğalçı Ermənistanda revanşizmi qızışdıran, Qarabağda separatçıların fəallaşmasına şərait yaradan İran, Fransa və digər ölkələr bir daha Türkiyənin hər bir halda yanımız-







hərini və İran İslam Respublikası ilə sərhəddə yerləşən Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərini əhatə etməsidir. Ssenariyə uyğun olaraq təlimlər zamanı Azərbaycan Ordusunun Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Xüsusi Təyinatlı Qüvvələr, Mühəndis Qoşunları, Raket və Artilleriya Qoşunlarının bölmələri Türkiyə Silahlı Qüvvələrinin hərbçiləri ilə birgə müxtəlif təlim döyüş tapşırıqlarını yerinə yetirirlər. Həmçinin təlimdə müasir döyüş üsullarından istifadə etməklə artilleriya, aviasiya və digər qoşun növlərinin hərbi əməliyyatlarda tətbiqi, onların qarşılıqlı əlaqədə fəaliyyətinin təşkili, çaylar üzərindən keçid açmaq məqsədilə panton körpülərin salınması, şərti düşmənin dərinliyinə desant endirilməsi üzrə müxtəlif tapşırıqlar da icra edilir.



Məlum olduğu kimi, 2021-ci il iyunun 15-də imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasında digər sahələrlə yanaşı, hərbi əməkdaşlığın daha da genişləndirilməsinin yol xəritəsinə çevrilib. Bəyannamədə iki dost və qardaş ölkənin Silahlı Qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması, modernləşdiril-




məsi istiqamətində birlikdə fəaliyyət göstərilməsi əksini tapır. Həmçinin müdafiə qabiliyyətinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsi, birgə təhsil və təlimlərin keçirilməsi də nəzərdə tutulur.

Məhz Şuşa Bəyannaməsində nəzərdə tutulduğu kimi, Azərbaycan və Türkiyə orduları arasında dərin dostluq və tərəfdaşlıq münasibətləri qurulub, uğurlu əməkdaşlıq daha da inkişaf etdirilib. Bunun nəticəsi olaraq qardaş ölkənin sürətlə inkişaf

da oluğunu gördülər. Təlim iştirakçılarına ünvanladığı müraciətdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qeyd etdiyi kimi, Azərbaycan-Türkiyə birgə hərbi təlimləri də göstərdi ki, heç kim bizi bir-birimizdən ayıra bilməz və ayıra bilməyəcək: "İnanıram ki, sizlər dostlara güc, düşmənlərə qorxu verdiniz."

Noyabrın 25-də ADA Universitetində keçirilən beynəlxalq konfransda Prezident İlham Əliyev də məhz bu məqamı bəyan etmişdi: "Azərbaycana və ya Türkiyəyə qarşı məkrli planları olanlar bilməlidirlər ki, türk ordusu tək deyil, orada, həmçinin bizim ordu da var. Bizim ordu isə tək deyil, o cümlədən orada türk ordusu da var."

Bəli, qəhrəman Azərbaycan və Türk əsgərlərinin ən yüksək peşəkarlıqla icra etdikləri döyüş tapşırıqları dostlarımıza güc, düşmənlərimizə isə qorxu verir. Çünki bizim gücümüz həm də birliyimizdədir!

***M. Rəsuloğlu***

# Ruben Vardanyanın HİYLƏGƏR İNİLTİLƏRİ



**Ruben Vardanyanın səsləndirdiyi bəyanatlara sarkazm olmadan yanaşmaq mümkün deyil. Bu iş adamının cəfəngiyyatlarının ardı-arası kəsilmir ki, bir müddət lağ hədəfi olmaqdan yayına bilsin. İndi də Vardanyan Qarabağ ərazisində məskunlaşan, yaşayan erməni əsillilərin "acınacaqlı taleyi və xəstəlikləri" barədə hüzn dolu hekayələri ilə özünü gündəmə gətirmək istəyib və bununla da yenə lağ hədəfinə çevrilib. Azərbaycanlıların Laçın yolunda keçirdiyi dinc aksiya nə vaxtdan "soyqırım" təhlükəsi hesab olunub və azərbaycanlı ekoloqların birdən-birə "terrorçu"ya çevrilməsi Vardanyanın olmayan ağlına hardan gəlib? Görünür bu əqli cəhətdən xəstə olan adamın fantaziyası da sağlam deyilmiş.**

Laçın yolunda azərbaycanlı fəalların sivil aksiyasını pafoslu şəkildə qərəz kimi qələmə verməyə çalışan Vardanyan bununla özünü ermənilərin mifləşdirdikləri qəhrəmana çevirmək həvəsinə düşüb. Məsələ burasındadır ki, uzun illər Rusiyada yaşayıb işləmiş bu oliqarx Ruben qondarma və mifik çar Tiqrandan daha çox, İspan yazıçısı Migel de Sevantesin "Don Kixot" personajına bənzəyir. Xankəndidə yaşayan erməni əsillilərin durumunu 1941-ci ilin qışında Leninqrad (indiki Sankt-Peterburq) sakinlərinin tam blokadaya düşməsi ilə müqayisə edən Vardanyan bu bənzətməsi ilə hətta Alman yazıçısı Rudolf Erix Raspenin yaratdığı gopçu "Baron Münhauzen" obrazını da xatırladır. Çünki Leninqradın blokadasının iki il yarım davam etməsi, aclıq və nasist hava hücumları nəticəsində əhalinin kütləvi ölümüylə müşayiət olunması ilə Laçından Xankəndinə gedən yolun cəmi iki-üç gün bağlı qalmasını müqaisə etmək, oxşar qələmə vermək Servantesin, yaxud Raspenin qəhrəmanının işi ola bilərdi. Yel dəyirmanı ilə vuruşduğunu, yaxud da top mərmisinə minib aya uçduğunu nəql edən gopçuların ancaq belə fantaziyaları ola bilərdi ki, indi buna bənzər uydurmaları hamı Vardanyandan eşidir. Bəlkə də sözügedən yolun iki-üç gün bağlı olması Vardanyan və digər hay kökənlilər üçün olduqca ağır gəlir və onlar bunu Leninqrad blokadası kimi ağrılı, acılı hesab edirlər. Hər bir halda, dırnaqarası "cəfakeş" bir erməni rolunda Ruben Vardanyanın iniltiləri hər tərəfə yayılıb, hansıki bu da erməni xislətinə məxsus olan saxtakarlıq nümunəsi sayılır.

"Azərbaycan Laçın yolunu kəsib", deyə bar-bar bağıran Vardanyan da saxtakarlıqda digər separatçılardan geri qalmır. Məsələ burasındadır ki, Azərbaycan yolu bağlamayıb, sadəcə olaraq, Volkovun kölgəsi altında gizlənən və bu kölgədən istifadə edərək Azərbaycanın təbii sərvətlərini talayan, bununla da ətraf mühitə külli miqdarda ziyan vuran Vardanyanın istismar etdiyi mədənlərə baxış keçirməsinin rus sülhməramlıları tərəfindən qarşısının alınmasına görə dinc etirazçılar yolu kəsiblər. Maraqlıdır, niyə azərbaycanlı ekoloqlar Azərbaycan dövlətinə məxsus olan ərazilərə, mədənlərə baxış keçirə bilməsinlər? Bu hansı məntiqə, yaxud hansı qanuna zidd hesab oluna bilər? Öz ərazisində, öz torpağında, öz ölkəsinə məxsus olan mədənə baxış keçirmək nə vaxtdan sülhməramlılar üçün qəbuledilməz hesab olunub? Yox? əgər qəbuledilməz deyilsə, onda nə haqla, ən əsası da nə səbəbə azərbaycanlı ekoloqlar bizə məxsus olan mədənlərə buraxılmır? Əlbəttə ki, bir oliqarxın qeyri-qanuni, həm də başqa dövlətə məxsus ərazidə balıq ovu, mədənləri istismar etməsi reallıqları fonunda niyə sualına cavab tapmış oluruq.

Görünən odur ki, qondarma, dirnaqarası "Dövlət naziri" vəziyyəti olduqca şişirdir. Daha doğrusu, Vardanyan vəziyyətdən istifadə etmək, reallıqları özü istədiyi kimi təqdim etmək, böyütmək, guya həyəcan təbili çalmaq niyyətini gizlədə bilmir. Əslində, həyəcan təbili çalınmalı idi, amma indi yox, ilk növbədə 30 il bundan əvvəl ermənilər Azərbaycan ərazilərini işğal edəndə və ikinci növbədə də bu işğalına görə 44 günlük müharibə ilə üz-üzə dayanıb rüsvayçı məğlubiyyətlə qarşılaşanda və bu məğlubiyyətin, təslimçiliyin ardınca öhdəliklərinə əməl etməyəndə həyəcan təbili çalınmalı idi. Çünki belə qanunsuz hərəkətlərinə, hədsizliklərinə görə cavab verəcəklərini bilməli və buna görə həyəcan təbili çalmalı idilər ki, "Dəmir yumruq" başlarını əzər, hansıki belə də oldu və yenə də gözlənilən elə odur.

Qaldı Ruben adlı oliqarxın qara-qışqırıq salmasına, onun absurd, yalan fikirlərinə görə ortaya çıxan suallar da az deyil. Əvvəla, sual oluna bilər ki, bir neçə gün ərzində bu qədər "qəfil xəstələnənlər" necə peyda oldu? Digər tərəfdən də axı erməni əsilli sakinlərin arasında "qəfil xəstələnənlər" necə ola bilər ki, videogörüntülərdə istər Xankəndi yolunda, istərsə də Gorusdan Qarabağa gedən yolda bir dənə də olsun təcili yardım maşını görünmədi? Bəs azərbaycanlı hüquq müdafiəçisi Dilarə Əfəndiyevanın Qarabağ ermənilərinə tibbi yardım təklifi ilə müraciət etməsi, hətta əlaqə üçün telefon nömrəsini də elan etməsi, maraqlanan hər kəs müraciət etmək imkanının olması barədə niyə Vardanyan bildirmir? Əlbəttə ki, Rubenin nə belə suallara cavab vermək, nə də reallıqları etiraf etmək niyyəti yoxdur. O, ancaq həyəcan təbili çalaraq, məsələni dərinləşdirərək bundan istifadə etmək və bununla da bizə məxsus olan mədənlərdən daha çox oğurlamaq niyyəti güdür. Amma görünür, Vardanyan başa düşür ki, ağlından keçəni reallaşdıra bilməyəcək və "iniltiləri" də buna görədir.

Qarabağ ərazisində guya 30 min erməni əsilli uşağın həyati təhlükə altında olduğunu deyən Vardanyan saxtakarlığın son həddini də geridə qoyur. Əvvəla, xatırladaq ki, Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasında yaşayan ermənilərin ümumi sayı 30-35 min nəfərdir. Belə olan halda, orada 30 min uşaq orada necə ola bilir? Bəyəm Azərbaycan ərazisində məskunlaşan erməni əsillilər ancaq uşaqlardan ibarətdir? Bu qədər saxtakarlıqla Vardanyan nəyə isə nail olacağına özü inanırmı görəsən? Yaxud statistik rəqəmləri əldə etmək indiki dövrdə, elmin, innovasiyaların inkişaf etdiyi bir zamanda nə qədər asan olduğunu da bu oliqarx bilmir? Maraqlıdır, həmin adam bu ağılla bir iş adamına, oliqarxa necə çevrilib? Bəlkə də öz barəsində yaydıqlar belə yalandır və özünə qarşı da saxtakarlıq edib. Xatırladaq ki, guya Rusiya vətəndaşlığından imtina edərək Moskvadan gələn, əslində isə ruslar tərəfindən qovulan, Kreml tərəfindən "verbofka" olunan Vardanyanın iniltiləri elə həmin zamandan başlayıbmış.

Erməni əsillilərin Qarabağ ərazisində qazsız, enerjisiz qalması barədə yalandan bar-bar bağıran Vardanyan yenə də blef edir. Əvvəla, "Azəriqaz"ın artıq bəyan etdiyi kimi, regiona qazın verilişindəki fasilələrlə Azərbaycanın heç bir əlaqəsi yoxdur. Deməli, Vardanyan Azərbaycanı hədələməyə çalışır, öz hakimiyyətinə hansısa "cavab tədbirləri" barədə təkliflə çıxış edir. Maraqlıdır, Rubenin bəlkə hansısa "müdafiə ordusu" və ya xaricdən kömək almaq ümidi var? Bəlkə separatçı qalıqlarına ümid edir? Anlamırıq ki, bütövlükdə Ermənistan silahlı qüvvələrini 44 günə diz çökdürən Azərbaycan üçün "qırıntıları" silib-süpürmək neçə günlük yox, neçə saatlıq iş ola bilər? Bəs Vardanyan o zaman taleyinin necə olacağını düşünübmü? Bəlkə elə iniltilərinin bir səbəbi də budur?

İllüziyalar, cəfəngiyyatlar burulğanında boğulan və buna görə də inildəyən Ruben Vardanyan yaxşı olardı ki, öz işi ilə məşğul olardı və qanmadığı məsələyə burnunu soxmazdı. Bax belə etsəydi indiki kimi inildəməzdi. Azərbaycanın artıq səbr kəsası dolmaq üzrədir və bunu inildəyən Vardanyanın timsalında bütün ermənilər hiss edirlər, hansıki yuxularını da ərşə çəkən elə budur. İndi Vardanyan da, digərləri də inildəməmək üçün revanşist illüziyalardan və cəfəngiyyatlardan əl çəkməlidir. İndi artıq Qarabağın separatçı boyunduruğu altında yaşayan bütün erməni etnik əhalisinin qərar verməl vaxtıdır və onlar bilməlidirlər ki, ya Azərbaycan vətəndaşlığını qəbul edərək Qarabağda sabit, sakit həyat sürməlidirlər, ya da birmənalı şəkildə sərhədlərimizi tərk edərək Ermənistana üz tutmalıdırlar və ermənilər özlərini bilməməzliyə vursalar da bu reallıq artıq hamı tərəfindən başa düşülür. Rusiya vətəndaşlığından imtina edərək Qarabağa gələn, Moskvanın verbofkası olan və gəldiyi zaman Azərbaycanın yaratdığı reallıqlarla qarşılaşan, amma barışmaq istəməyən Ruben Vardanyanı bir də inildədən məhz bu reallıqlardır, hansıki, o özü də həmin reallıqlarla üz-üzədir.

***İnam Hacıyev***



# Yol qəzalarının səbəbi nədir?

**Elçin Bayramlı**

**Bu gün səhəri daha bir faciə xəbəri ilə açdıq. Bakı-Quba yolunun 98-ci km-də baş verən ağır yol-nəqliyyat qəzasında mikroavtobusla yük maşını toqquşub. Mikroavtobusun sürücüsü daxil olmaqla 6 nəfər həlak olub, yük maşınının sürücüsü isə xəsarət alıb. Həlak olanlardan biri uşaqdır.**

Belə faciələr son vaxtlar daha tez-tez baş verir. Bunun səbəbləri haqda çox yazılıb, çox danışılıb, lakin hələ də bu problemin həlli ilə bağlı ciddi irəliləyiş əldə olunmayıb. Burada çox sayda səbəblər var- yol infrastrukturunun bəzi yerlərdə təhlükəli olması, sürücünün yorğunluğu, avtomaşınların texniki vəziyyətinin yaxşı olmaması, sürücülərin qeyri-peşəkarlığı, yolverilən sürət həddinin keçilməsi və s.

Bu səbəblər arasında, məncə, ən əsası sürət həddinin aşılmasıdır. Xüsusən də, şəhərlərarası avtobusların çoxu yolverilən sürət həddini xeyli dərəcədə keçir. Məqsəd məsafəni daha tez qət etmək və qısa vaxtda daha çox gəlir əldə etməkdir. Nəinki mikroavtobusda, hətta iri avtobusların da 110-la getdiyim yolda saatda 150 ilə yanımdan şütüyüb keçməsinin şahidi olmuşam. Halbuki, avtobusların 90 km/saat-dan artıq sürətlə getməsi qadağandır.

Ən dəhşətlisi orasıdır ki, 50 nəfər daşıyan avtobusun sürücüsünə sərnişinlərdən heç kim irad bildirmir, normal sürətlə sürməsini tələb etmir. Çünki onlar da mənzilbaşına mümkün qədər daha tez çatmağa çalışırlar. Burada sürücü və sərnişinlər arasında yazılmamış qanun, gizli razılaşma var sanki. Bax bu sürətli həyat tərzi əksər faciələrin səbəbkarıdır.

21-ci əsrdə "sürət əsri" demək, avtomobili yolverilən həddən yüksək sürətlə idarə etmək deyil. Bəziləri bu ifadəni səhv başa düşüblər və bu səhv də onlara həyatları bahasına başa gəlir. Həm də təkcə özlərinin yox, günahsız başqalarının da...

Mikroavtobuslarda isə vəziyyət daha təhlükəlidir. Bu maşınlar magistrallarda 150 km/saat-dan yuxarı sürətlə gedirlər. Bəzən isə 180-200 km/saat sürətlə. Halbuki, bu yolların infrastrukturu 120 km/saatdan yuxarı sürət üçün uyğun deyil və bu, aşkar qəza deməkdir.

Problemlərdən biri yük maşınlarının sürücüləri ilə bağlıdır. Onlar da əksər yol hərəkəti qaydalarına riayət etmir, yüksək sürətlə sürürlər. Çünki işlədikləri şirkət qarşılarına daha tez və daha çox işləmək tapşırığı qoyur, bəzən sutkada 15-16 saat sükan arxasında olurlar. Üstəlik, bu maşınlar əksər hallarda icazəverilən normadan 2-3 dəfə artıq yüklənir ki, bu da potensial ölüm maşını deməkdir. Onsuz da bu avtomaşınların əksəriyyətinin texniki vəziyyəti ideal deyil.

Sürücülərin yorğunluğu da qəzaların səbəbləri arasındadır. Ekspertlərin rəyinə görə, uzun yola çıxanda göz və beyin yorulur və sürücünü yuxu tutduğuna, ən azı beyin reaksiyaların ciddi şəkildə azalmasına görə, hər iki saatdan bir dayanıb istirahət etməlidir. Sürücülərin çoxu buna fikir vermir. 6-7 saatlıq yolda maksimum bir dəfə dayanırlar- o da, məcburən- yemək üçün.

Daha bir səbəb isə qeyd etdiyimiz kimi, yol infrastrukturu ilə bağlıdır. Düzdür, son dövrlərdə ölkəmizin əksər avtomobil yolları yenidən qurulub və standartlara cavab verir, lakin hələ də təhlükəli yollar var. Onlardan biri də tez-tez qəzaların baş verdiyi, elə bu son faciənin də yaşandığı Bakı-Quba avtomobil yoludur. Bu yolun necə çəkildiyi, nə qədər böyük vəsait xərcləndiyi, neçə ilə dağılıb sıradan çıxdığı haqda haminin məlumatı var. Bu səbəbdən bundan danışmayacağam. Hazırda bu yolda çox böyük yenidənqurma işləri gedir. Yol sökülərək yenidən çəkilir. Hələlik, yolun əksər yerlərində bir hərəkət hissəsi çəkilib və bu səbəbdən cəmi 1 gediş-1 gəliş zolağı var. Bu da şəhərlərarası yol üçün təhlükəli vəziyyət deməkdir.

Bu səbəblərdən, ölkəmiz avtoqəzaların, qəzalarda ölümlərin sayına görə dünyada öncül yerlərdədir. Bütün bu səbəblər aradan qalxmayınca, belə faciələrin də ardı-arası kəsilməyəcək. Təəssüf ki, bu, acı həqiqətdir...

# ”Rusiya Kino Muzeyində Azərbaycan kinosuna aid unikal eksponatlar var”

**Moskvanın tam mərkəzində yerləşən Dövlət Mərkəzi Kino Muzeyi Rusiya paytaxtının qonaqları arasında xüsusilə məşhurdur. Muzeyin divarlarında 190 mindən çox unikal eksponat, o cümlədən Azərbaycan kinoafişası, neqativlər və foto sənədlər kolleksiyası toplanıb. ”Moskva-Baku” portalının müxbiri Bakıda qonaq olan Moskva Dövlət Mərkəzi Kino Muzeyinin direktoru Larisa Bajenova ilə söhbət edib, o, ən qiymətli eksponatlardan danışıb, Azərbaycanla əməkdaşlıq planlarını bölüşüb. Müsahibəni oxucularımıza təqdim edirik.**





*- Larisa Vyaçeslavovna, Bakıda ilk dəfəsiniz. Şəhər haqqında təəssüratlarınızı bölüşərdiniz...*

- Doğrudan da, bu, mənim Bakı ilə ilk tanışlığımdır. Bu günə kimi mən burada olmamışam, baxmayaraq ki, Azərbaycan paytaxtı haqqında çoxlu xoş sözlər eşitmişəm. Etiraf edim ki, Bakıya ilk baxışdan aşiq olmuşam. Heyrətamiz dərəcədə gözəl şəhər! Düşünürəm ki, Bakının küçələrində daha çox gəzmək, insanlarla ünsiyyət qurmaq, təmiz dəniz havası ilə nəfəs almaq üçün yenidən buraya gəlmək lazımdır. Sovet kinosunun tarixinə keçmiş hər kəsin sevdiyi filmlərin çəkildiyi İçərişəhəri gəzmək istərdim - ”Brilyant əl”, ”Amfibiya adam”, ”Tehran-430”, ”Qorxma, mən səninləyəm!”. Mən də yerli muzeylərin eksponatları ilə tanış olmaq, Azərbaycan tarixi və adət-ənənələri haqqında daha çox öyrənmək istəyirəm. Ümid edirəm ki, hər şeyi çatdıraram...

*- Siz Moskvanın ən qeyri-adi və maraqlı muzeylərindən birinə - Dövlət Mərkəzi Kino Muzeyinə rəhbərlik edirsiniz. Onun çoxsaylı eksponatlarından hansı ən qiymətli və maraqlıdır?*

- Hər bir eksponat unikaldır. Fəaliyyət göstərdiyimiz illər ərzində SSRİ və Rusiyada kinonun yaranması və inkişafından bəhs edən 190 mindən çox nüsxə toplaya bilmişik. Bunlar fotoşəkillər, neqativlər, əlyazma materialları, şəxsi gündəliklər, yazışmalar, afişalar və plakatlar, animasiya eskizləri, slaydlar və s-dir. İndiki formada Dövlət Mərkəzi Kino Muzeyi 1989-cu ilin martında Ümumittifaq Kino Təbliğat Bürosunun yenidən təşkil olunmuş muzey şöbəsinin bazasında yaradılmışdır. Və 2017-ci ildə Kino Muzeyi VDNX-da 36 nömrəli ”Kənd təsərrüfatı məhsullarının emalı” pavilyonunda öz qapılarını ziyarətçilərin üzünə açdı. Yeri gəlmişkən, bura Azərbaycanın sərgi pavilyonundan çox da uzaqda deyil. Yeni məkanda muzeyin kolleksiyasından filmlərin nümayişi üçün 3 kinozal, daimi sərgilər və tematik sərgilər üçün təchiz olunmuş yerlər, kinematoqrafiyanın tarixi və nəzəriyyəsi üzrə mühazirələr üçün auditoriyalar yerləşir. Və ”Karetniy Ryad”da bizim Kino Kitabxanamız var, yeri gəlmişkən, bu, Rusiyada kinoya həsr olunmuş çoxlu sayda jurnal, afişa, açıqca saxlayan yeganə qurumdur. Hər gün rus kinosunun necə yarandığını öyrənmək, ilk kino avadanlıqlarının necə göründüyünü görmək, məşhur filmlərin ”pərdəarxası”nda çəkilmiş unikal fotoşəkilləri görmək istəyən qonaqlar bizə gəlir.

*- Muzeydəki ən qədim eksponatlarınız hansıdır?*

- Əlbəttə ki, bu kino və foto avadanlıqdır. 100 ildən çox yaşı olan və əslində, kinematoqrafiyanın doğulduğu sehrli fənərlər. Onsuz da onların əsasında kameralar və kino kameraları istehsal etməyə başladılar. Bizim fondlarda həmçinin Sergey Eyzenşteynin ”İvan Qroznı” (1942), Stanislav Rostotskinin ”Dövrümüzün Qəhrəmanı” (1966) və bir çox başqa kinofilmlərin çəkilişləri zamanı məşhur aktyorların geyindiyi kostyumların böyük kolleksiyası var. Ən son tapıntılarımızdan biri də Sergey Solovyovun ”Anna Karenina” filmindən paltar və kostyumlardır. Onların hamısı əl işidir və buna görə də unikal və qeyri-adi dərəcədə gözəldir. Hələ 1942-ci ildə ”Moskva yaxınlığında faşist qoşunlarının məğlubiyyəti” filminə görə ingilisdilli olmayan bir ölkə- Rusiya tərəfindən alınan ilk Oskar da muzeyimizdə saxlanılır. Gipsdən hazırlanmış və qızılla örtülmüşdür. Müharibə bitdikdən sonra kino mükafatı yenisi ilə əvəz edilməli idi, lakin soyuq müharibə başladı və gips Oskar Rusiyada beləcə də qaldı.

*- Muzeyinizdə Azərbaycan eksponatlarına baxmaq mümkündürmü? Maraqlıdır, onlar nədir?*

- Azərbaycan kinematoqrafiyasının formalaşmasının əsas mərhələlərindən bəhs edən 500-dən çox bölmə. Bunlar fotoşəkilləri, foto sənədləri, filmlərdən kadrları, afişaları, açıqcaları çap edə biləcəyiniz lentlərdir. Kino Muzeyinin fondlarında həqiqətən unikal eksponatlar var. Məsələn, Sovet avanqard rəssamlarının gənc nəslinin nümayəndəsi İqor Savçenkonun ”Azərkino”da çəkilmiş ”Nikita İvanoviç və sosializm” (1931) və ”Əlsiz insanlar” (1932) filmləri üçün fotokitabxanada saxlanılan materiallar var. Kino Muzeyinin fotolar və kinokadrlar kolleksiyası bu itirilmiş filmlərdən məlum olan yeganə materialdır. Muzeyin gözəl materiallar kolleksiyasında Əjdər İbrahimovun vətəndaş müharibəsindən bəhs edən ”26 Bakı komissarı” (1965) və ”Ulduzlar sönmür” (1970) filmlərinin eskizləri toplanmışdır. Onlar da böyük maraq doğurur, çünki filmlər üçün şəkilli həllərin axtarışı prosesini izləməyə imkan verir. Görkəmli quruluşçu rəssam Fikrət Bağırovun hazırladığı eskizlər xüsusi diqqətə layiqdir. Bunlar onun Şamil Mahmudbəyovun ”Şərikli çörək” filmi, habelə rejissor Rasim Ocaqovun ”İstintaq” və ”Bağlı qapı önündə” lentləri, Fərhad Yusufovun ”Aşkarsızlıq şəraitində” detektiv hekayəsi üçün əsərləridir..

*- Larisa Vyaçeslavovna, özünüz hansı filmlərə baxmağı xoşlayırsınız?*

- Üç filmi çox bəyənirəm - Nikita Mixalkovun ”Beş axşam”, Georgi Natansonun ”Bir daha sevgi haqqında” və Era Savelyeva və Tatyana Berezantsevanın ”Dəbdən düşmüş komediya”. Bunlar bir neçə aktyorun oyunu üzərində qurulmuş şəkillərdir, lakin dialoqlar o qədər bacarıqlı və aydın şəkildə qurulub ki, əsl şah əsərlər oldu. Operatorların və rejissorların inanılmaz işi! Bu filmlərdən kino xadimləri üçün dərsliklər yazmaq olar.

*- Azərbaycan kinosunda nəyi bəyənirsiniz?*

- Təbii ki, bunlar kino klassikidir - ”Arşın mal alan”, ”Qorxma, mən səninləyəm” və ”26 Bakı komissarı”. Ümumiyyətlə, şərq həyatını göstərən köhnə Azərbaycan filmlərini çox bəyənirəm. Çox təəssüf edirəm ki, mən hələ də müasir Azərbaycan rejissorlarının işini görməmişəm. Azərbaycandan yeni filmlər Moskvaya çox gətirilmir. Ancaq ümid edirəm ki, tezliklə biz bu səhvi düzəltməyə çalışacağıq. Bu günlərdə Bakıda Azərbaycan Dövlət Film Fondunun direktoru Cəmil Quliyevlə görüşdüm və biz razılaşdıq ki, 2023-cü ildə Azərbaycan kinematoqrafiyasının 125 illiyi və Cəfər Cabbarlı adına ”Azərbaycanfilm” kinostudiyasının 100 illiyi ilə bağlı Azərbaycan filmlərinin xüsusi nümayişinin təşkili üçün materiallar seçilsin. Beləliklə, biz fəal əməkdaşlıq edəcəyik və çoxlu planlarımız var. Gələn il biz ”SSRİ. 15 nömrəli kino simfoniyası” adlı geniş miqyaslı sərgi təşkil etmək istəyirik. Biz bunu keçmiş Sovet respublikalarının kinosunun inkişafına həsr edəcəyik və sərgidə Azərbaycanın unikal kinoeksponatlarını görməkdən şad olarıq.

***Tərcümə - Elçin Bayramlı***




Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə” istiqaməti çərçivəsində hazırlanıb.

SON SƏHİFƏ
SƏS
16 dekabr 2022-ci il

# Açıqlandı: Ən çox zorakılığı bu şəxslər törədir!



Ötən il zorakılıq törədənlərin 33%-i qurbanların əri, 16%-i keçmiş əri, 6%-i qanuni nikahda olmadan birgə yaşadığı şəxs, 4%-i anası, 4%-i atası, 10%-i qardaşı, 12%-i qaynanası, qalan 15%-i isə digər şəxslərdir (arvad, ögey ana, övladlığa götürən, baldız, bibi, dayı, bacı və s.).

SİA-nın məlumatına görə, bu barədə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri üzrə komitəsinin dünən keçirilən iclasında müzakirəyə çıxarılan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2021-ci il üzrə məlumatında əksini tapıb. Qeyd edilib ki, zorakılıq qurbanları daha çox məişət zəminində fiziki və psixi zorakılığa məruz qalırlar. Sorğuya cəlb olunmuş respondentlərin 78%-i fiziki, 84%-i psixi zorakılığa məruz qaldığını bildirib.

Ekspertlərin əksəriyyətinin qənaətinə görə, zorakılıq qurbanlarının çoxu seksual zorakılığa məruz qalmalarını açıqlamaqdan çəkindiklərindən seksual zorakılıq qurbanlarının statistik göstəriciləri reallıqda olduğundan dəfələrlə aşağıdır.

Eyni zamanda iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərə məruz qalanların da statistikası reallıqdan uzaqdır. Sorğuya cəlb edilmiş respondentlərin yalnız 33%-i iqtisadi, 11%-i isə seksual zorakılığa məruz qaldığını bildirib. Sorğuda iştirak edən respondentlərin 9%-i COVİD-19 pandemiyası dövründə zorakılıq hallarının artdığını, 2%-i azaldığını, 89%-i isə fərq etmədiyini bildirib.

# İranda məhbuslar edam edildi



İranda molla rejiminin insanlara qarşı qəddar rəftarı günü-gündən artır. SİA teleqram kanallarından birinə istinadən xəbər verir ki, hökumət Ərak zindanında 5 məhkumu edam edib.

Məlumata görə, onlar narkotik maddələrin alverində günahlandırılıb. Dekabrın 12-də dar ağacından asılaraq həyatlarına son qoyulan əslən azərbaycanlı olan Məhəmməd İmani, Ehsan Nasiri və Mustafa Kaşinin kimlikləri məlum olsa da, başqa iki məhkumun şəxsiyyətini hələlik dəqiqləşdirmək mümkün olmayıb. İran Məhkəmə sistemi və mediası sözügedən edamlar barədə hər hansı məlumat yaymayıb. Qeyd edək ki, İran İnsan Hüquqları Təşkilatı 2021-ci il oktyabrın 10-dan oktyabr-n 7-dək ölkədə 528 nəfərin edam olunduğunu açıqlamışdı.

# Ronaldo “Real”ın bazasında məşq edir

Futbol üzrə Portuqaliya millisinin kapitanı Kriştiano Ronaldo ”Real”ın bazasında məşqlərini davam etdirir. Qol.az DAZN-ə istinadən xəbər verir ki, 37 yaşlı hücumçu ardıcıl ikinci gündür Madrid klubunun bazasına gedib. O, komandanın məşq meydançalarından birində fərdi qaydada məşq edir. ”Real”ın prezidenti Floretino Peres Kriştianoya bildirib ki, Valdebebas onun evidir və lazım olan müddətdə orada məşq edə bilər.



Qeyd edək ki, Ronaldo hazırda azad agent statusundadır. O, noyabrda ”Mançester Yunayted”lə müqaviləsinə xitam verib. Xatırladaq ki, Ronaldo 2009-2018-ci illərdə ”Real”da oynayıb.

# Dəhşət: yol qəzasında 6 nəfər öldü

Dəhşətli yol qəzaları can almağda davam edir. Belə ki, dünən Siyəzən rayonunun ərazisində dəhşətli yol qəzası baş verib, nəticədə 6 nəfər həyatını itirib. Baş Dövlət Yol Polisi İdarəsinin Siyəzən rayonunda 6 nəfərin öldüyü qəzanın necə baş verdiyi barədə açıqlama yayıb.

İdarənin əməkdaşı polis leytenantı Elvin Hacıyev bildirib ki, hadisə bu gün səhər saat 10 radələrində Bakı-Quba-Rusiya dövlət sərhədi avtomobil



yolunun Siyəzən rayonu ərazisindən keçən hissəsində qeydə alınıb.

Belə ki, Qubadbəyliyev Nəsimi Əlimuxtar oğlunun idarə etdiyi ”Mercedes Viano” markalı, 10-VE-933 dövlət qeydiyyat nişanlı sərnişin avtomobili ilə əks istiqamətdən gələn Göyçəliyev Şaiq Məmməd oğlunun idarə etdiyi ”DAF” markalı (TIR), 99-BG-262 dövlət qeydiyyat nişanlı yük avtomobili toqquşub. Nəticədə ”Mercedes Viano”nun sürücüsü və 5 sərnişi hadisə yerində ölüb. Faktla bağlı araşdırma aparılır.

# Fiziki aktivlik beynin gimnastikası üçün vacib şərtdir



Elm və texnologiya inkişaf etdikcə qəbul edilən informasiya yükü də çoxalır və həddindən artıq yüklənmə beynin inkişafına mənfi təsir göstərir. Mütəxəssislər də beyini lazımsız məlumatlarla doldurmağın əleyhinə çıxırlar.

Psixoloq Gülər Məmmədova bu mövzuda mətbuata maraqlı fikirlər səsləndirib. O qeyd edib ki, müəyyən baş ağrıları, təzyiqin qalxması-enməsi və yaxud da bəzi insanlar əsəbiləşəndə yeməyə çox meyilli olması beyin funksiyasının düzgün idarə olunmaması ilə əlaqədardır: ”Çünki beyin dincəlmir və ona istirahət verilmir. Neyrobika ilə məşğul olunmadığına görə beyin dincəlmədiyindən öz funksiyasını itirir, çox vaxt sol və sağ yarımkürə arasında informasiya mübadiləsində qarışıqlıq yaranır”.

Bəzi elmi araşdırmalara görə, insan beyni 41 yaşadək inkişaf edərək irəliləyib ən mükəmməl həddə çatır və ondan sonra sabitləşməyə başlayır. Bununla yanaşı bir çox alimlər 30 yaşı olanların beyin sağlamlığını qorumaq üçün təzyiq göstəricilərinə diqqət yetirmək barədə xəbərdarlıq edirlər. 30 və 40 yaşlarındakı yüksək təzyiq immun zədələnmələrini sürətləndirir, 36-43 yaşlarda isə qan təzyiqindəki artımın beyinin kiçilməsi ilə əlaqəli olması nəticəsinə gəliblər. Bütün yaş hədlərində beyini düzgün şəkildə inkişaf etdirmək barədə bəhs edən psixoloq deyib: ”Həftədə bir dəfə gündəlik məşğuliyyətdən əlavə maraqlı bir işlə məşğul olmaq lazımdır. Peşə və bacarıqlarımızdan fərqli, neyrobikaya aid olan müxtəlif hərəkətlər kompleksi var. Məsələn, gün ərzində - işin sonunda, tək olanda və ya hansısa boş vaxtda əllərlə edilən hərəkətlər, yaxud baş nahiyəsinə toxunuşlar mütləq olunmalıdır. İnsan öz beyninin gigiyenası və sağlamlığı ilə düzgün məşğul olsa, bu gün bir çoxlarını narahat edən və aktuallığı ilə seçilən Alsheymer xəstəliyi aradan qalxa bilər”.

Beyin gimnastikası üçün əvəzolunmaz məşqlərdən biri də səyahətdir, çünki səyahət zehni stimullaşdırır və yeni məşğuliyyətlər, fəaliyyət sahələri ilə tanış oluruq, eyni zamanda, biliklərimiz də inkişaf edir.

Fiziki aktivlik beynin gimnastikası üçün vacib şərtlərdən biridir, çünki hərəkət etdikdə beyində əlavə hüceyrələr əmələ gəlir və beyin böyüyür. Açıq havada idman isə D vitamini ilə təmin edir, bu isə beyinin inkişafında əvəzsiz rol oynayır. İti zehin və güclü diqqət üçün beynin inkişafı vacibdir. Bunun da ən faydalı üsulu beyin gimnastikasıdır.

*Gülyanə*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**